www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 6-7 may 2017-ci il Şənbə № 96 (6710) Qiyməti 60 qəpik

**Xəbər**

## Bakıda manyak peyda olub - məktəbli qızların qarşısını kəsir...

yazısı səh.2-də

**Gündəm**

### Ziya Məmmədov "qara dairədə"



Senatorların tələb etdiyi araşdırmalar Məmmədovların qurban verilməsi ilə sonuclana bilər

yazısı səh.4-də

### İki uşağı anasız qoyan yeniyetmənin anormal həyat tərzi...

yazısı səh.3-də

### İltimas Məmmədovun nazir müavini postunda qalmasının pərdəarxası

yazısı səh.6-da

### Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşması Azərbaycana nə vəd edir...

yazısı səh.7-də

### Ərdoğanın AKP-dəki sağ əli "Yeni Müsavat"a nələr danışdı...

yazısı səh.8-də

### Bakı ilə Vaşinqton anlaşıb, yoxsa... - ekspertlərdən ilginc iddialar

yazısı səh.9-da

### "Məni öldürmək üçün killer tutmuşdular" - Amerikada mühacirətdə olan hərbi ekspert

yazısı səh.10-da

### "Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapacaq" - rusiyalı deputat

yazısı səh.11-də

### Beynəlxalq təşkilatlara Azərbaycanda inam sarsılıb

yazısı səh.12-də

### Neftin ucuzlaşmasının arxasında Amerika dayanır...

yazısı səh.13-də

### İslamiadanın açılış və bağlanış mərasimlərinə kimlər buraxılmayacaq?

yazısı səh.15-də

# TÜRKİYƏ VƏ AZƏRBAYCAN ÜÇÜN KRİTİK TƏHDİD AYI - DƏNGƏ DƏYİŞİR

Avqustda kürd dövlətinin elan olunması gözlənilir - təhlükəli gedişat; ABŞ və Rusiyanın mövqeyi Ankara və Bakını da seçimlə üz-üzə qoya bilər, çünki...



yazısı səh.9-da

## "Cahangir Hacıyevin adı 1 milyon manat müqabilində siyasi məhbus siyahısına salınıb" - ilginc iddia

Həbsdəki bankirlə bağlı qalmaqal böyüyür; keçmiş siyasi məhbus Fuad Hüseynov: "Bir hüquq müdafiəçisinə Hacıyevin yaxınları tərəfindən həmin məbləğ təklif olunub"...

yazısı səh.12-də



### Etibar Pirverdiyev 360 milyon manat vergini niyə ödəməyib...

yazısı səh.3-də



*Zahid Oruc:*

### "Kimsə maddi zənginliyə qovuşubsa, nəzərə almalıdır ki, bu, başqası üzərində hökmranlığa səbəb ola bilməz"

yazısı səh.4-də



*Rüstəm Xəlilov:*

### "Düşünmürəm ki, bu qanun deputatları tənqidi fikirlər söyləməkdən çəkindirəcək"

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

# Ahıl kişini təhqir etdiyi deyilən məmurun adı daha bir qalmaqalda

## "Keçmiş arvadımı bıçaqlamağım və həbs edilməyim doğru xəbər deyil"

**"Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin Saatlı rayon şöbəsinin rəisi Bayram Mikayılov həbs edilib". Qafqazinfo.az-ın verdiyi xəbərə görə, B.Mikayılov paytaxtın Xətai rayonunda arvadı Gülnarə Cəbrayılovanı mübahisə zəminində bıçaqlayıb.**

Bu barədə G.Cəbrayılovanın vəkili Vasif İsrafilov məlumat verib.

Belə ki, bu il yanvarın 26-da B.Mikayılov arvadının avtomobilinin qarşısını kəsərək onu öldürməklə hədələyib. Bir saata yaxın davam edən mübahisəyə kənar şəxslər sakitləşdirmək üçün müdaxilə edib. Bu zaman şöbə rəisi B.Mikayılov bıçaq çıxararaq onu vurub. Ətrafdakı şəxslər yaralı qadını maşına oturdaraq xəstəxanaya çatdırıblar. Həkimlərin müdaxiləsindən sonra onların həyatını xilas etmək mümkün olub.



Faktla bağlı Xətai Rayon Polis İdarəsində Cinayət Məcəlləsinin 211.3-cü (xuliqanlıq) maddəsi ilə cinayət işi başlanılıb. Bu gün, yəni mayın 5-də B.Mikayılov təqsirləndirilən şəxs qismində cinayət işinə cəlb edilib və saxlanılaraq Xətai rayon Müvəqqəti Saxlanma Yerinə təhvil verilib.

Qeyd edək ki, bir ay öncə mediada yaşlı kişinin təhqir edilərək alçaldılması barədə video yayılmışdı. Həmin məlumatda qeyd olunurdu ki, Saatlı rayon sakini Elşən Allahyarov direktor B.Mikayılovun qəbuluna gəlib, orada isə aşağılayıcı sözlərlə təhqir olunub. Nazirlik isə bu məlumatı təkzib edərək görüntülərin B.Mikayılovun otağında çəkilmədiyini bildirmişdi.

Günün sonunda isə özü məsələyə dair açıqlama verib. Bayram Mikayılov həyat yoldaşını bıçaqlaması və bu səbəbdən həbs edilməsi ilə bağlı yayılan xəbərlərə aydınlıq gətirib.

**B.Mikayılov BakiPost.az-a açıqlamasında bildirib ki, onun həbs olunması haqda yayılan xəbərlər yalandır:** "Bunlar mənim barəmdə şər-böhtan xarakterli məlumatlardır. Gülüncdür. Biz keçmiş xanımımla rəsmi olaraq boşanmışıq. Rəsmi olaraq 2016-ci ilin noyabr ayında Xətai Rayon Məhkəməsində boşanmışıq. Məhkəmədə əsassız iddialar qaldırdılar. Amma hazırda məhkəmə həmin iddiaları rədd edib. Hazırda Apellyasiya Məhkəməsində iş gedir. Məndən heyf çıxmaq üçün bunu edirlər. Məni hər yolla şərləmək istəyirlər. İşgüzar nüfuzuma xələl gətirmək üçün bu cür yollara əl atırlar. Yazıblar ki, həbs edilmişəm. Amma yalandır. Hazırda sizinlə də danışan Bayram Mikayılovdur. Sacədə onların məqsədi məni nüfuzdan salmaqdır".

**O, həyat yoldaşının bıçaqlanması məsələsinə də aydınlıq gətirib:** "Mən cinayətkar deyiləm ki, bıçaq çıxarım. Həm də o, mənim övladımın anasıdır. Hər halda mən də azərbaycanlı qanı axırsa, heç vaxt övladımın anasına bıçaq çıxartmaram".

**Bayram Mikayılov qeyd edib ki, bunların başında keçmiş həyat yoldaşı Gülnarə Cəbrayılovanın əmisi, Laçın rayonun sabiq icra başçısı Ramiz Cəbrayılov durur:** "Gülnarə Cəbrayılova bıcaqlanmayıb. Xəstəxanada belə deyil".

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan "Yeni Müsavat" - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Mehriban Əliyeva ISESCO-nun baş direktoru ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva mayın 5-də Bakıda keçirilən IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri ilə görüşüblər.**



Musavat.com-un AzərTAc-a istinadən verdiyi məlumata görə, görüşdə ISESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva qurumun baş direktorunu yenidən Bakıda görməkdən şad olduğunu bildirdi, Azərbaycan ilə təşkilat arasında səmərəli əməkdaşlığın qurulduğunu deyib.

Mehriban Əliyeva IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində aparılacaq müzakirələrin dünyanı narahat edən bir çox məsələlərin həllinə töhfə verəcəyinə əminliyini bildirib.

ISESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri yenidən Bakıda olmaqdan məmnunluğunu ifadə etdi. O, Forumun gündəliyində olan məsələlərin qlobal əhəmiyyət daşıdığını vurğulayıb.

# Bakıda arıqlama gellərini onlayn satan şəxs tutuldu

**İnsan orqanizminə ciddi zərər vuran, standartlara cavab verməyən keyfiyyətsiz, eləcə də müvafiq dövlət qurumlarından sertifikat alınmadan ölkəyə qanunsuz yolla gətirilən qeyri-qida əlavələri və kosmetik vasitələrin satışının qarşısının alınması istiqamətində daxili işlər orqanları tərəfindən əməliyyat-axtarış tədbiri həyata keçirilib.**

Bu barədə Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

Məlumatda bildirilir ki, ayrı-ayrı şəxslər tərəfindən Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə guya insanın artıq çəkisinin azaldılması üçün nəzərdə tutulan "Nano Thermal Gel" gellərinin keyfiyyətsiz olması və həmin vasitələrdən istifadə edən şəxslərin orqanizmlərində ciddi fəsadlar yaratdığı barədə çoxsaylı şikayətlər daxil olub.

Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində qeyd edilən keyfiyyətsiz, saxta gellərinin satışı ilə məşğul olan Bakı şəhər sakini Tural Mustafayev saxlanılıb.

Saxlanılan şəxsə məxsus, paytaxtın Nərimanov rayonunda yerləşən anbara baxış zamanı oradan külli miqdarda qeydiyyatsız, mənşəyi məlum olmayan, habelə sertifikatlaşdırılmadan satış üçün nəzərdə tutulan "Nano Thermal Gel" gelləri və müxtəlif çeşiddə olan çoxsaylı qeyri-qida əlavələri aşkar olunaraq götürülüb.

İlkin ifadəsi zamanı T.Mustafayev qeyd edilən gel və qeyri-qida əlavələrini ölkəyə gətirdiyini və həmin məhsulları onlayn yolla satışını təşkil etdiyini etiraf edib.

**Aşkar edilən mənşəyi məlum olmayan məhsulların insan orqanizminə mənfi təsirinin dərəcəsini müəyyən etmək məqsədi ilə müvafiq ekspertizalar təyin edilib, araşdırmalar davam etdirilir.**

# Bakıda manyak peyda olub - məktəbli qızların qarşısını kəsir...

**Bakıda yeniyetmə qızların qarşısını kəsərək, əxlaqsızlıq edən manyak peyda olub. Bu barədə Axar.az-a adının açıqlanmasını istəməyən valideynlərdən biri məlumat verib. Valideyn bildirib ki, Xətai rayonunda, Ali Məhkəmənin yanında "keşik çəkən" manyak yaxınlıqda yerləşən məktəblərdən çıxan yeniyetmə qızların qarşısını kəsir, onlara əlində tutduğu planşetdəki əxlaqsız fotoları göstərməyə çalışır:**

"Artıq 15 günə yaxındır ki, eyni hal təkrarlanır. Ötən gün məktəbli uşaqlardan biri manyakın bu qəfil hərəkətindən özünü necə itiribsə, avtomobillərin sürətlə hərəkət etdiyi prospektə çıxıb. Xoşbəxtlikdən, qəza baş verməyib. Valideyn olaraq çox narahatıq".

Valideynin sözlərinə görə, övladlarını qarşılamaq üçün artıq sözügedən əraziyə getməyə məcbur olublar:

"Yaxınlıqda növbə çəkən polislərə bu barədə məlumat verdik. Təəssüf ki, həmin vaxt manyak orada yox idi. Polislər isə foto və yaxud videofakt təqdim etməyimizin lazım olduğunu dedilər".

**Bakı Şəhər Baş Polis İdarəsinin mətbuat xidmətinin rəhbəri Qalib Arif** Axar.az-a açıqlamasında bildirdi ki, bu haqda rəsmi müraciət daxil olmayıb:

"Buna baxmayaraq, sizin müraciətiniz mütləq nəzərə alınacaq və ən qısa müddətdə müvafiq tədbirlər görüləcək".

# Azərbaycanda müəllimlərin işə qəbulu üzrə müsabiqənin vaxtı açıqlanıb

**Bu il Azərbaycanda müəllimlərin işə qəbulu üzrə müsabiqənin keçiriləcəyi vaxt açıqlanıb. Təhsil Nazirliyinin İnsan resursları şöbəsinin müdiri əvəzi Eşqi Bağırov APA-ya bildirib ki, müsabiqənin iyun-avqust aylarında keçirilməsi nəzərdə tutulub.**

Onun sözlərinə görə, ilkin mərhələdə müəllimlərin yerdəyişməsi həyata keçiriləcək. Ötən il iyun ayının əvvəlində yerdəyişmə üzrə sənəd qəbulunun aparıldığını xatırladan Eşqi Bağırov qeyd edib ki, iyunun ikinci yarısında imtahanlar aparılıb: "Bu il də yerdəyişmə prosesi eyni vaxtda təşkil olunacaq. Hazırda müəllimlərin işə qəbulu üzrə yeni qaydaların təsdiqi gözlənilir. Bu qaydalar təsdiq edildəndən sonra vakant yerlər toplanacaq və müəllimlərin işə qəbulu üzrə elan veriləcək".

# "Ermənilərin Tərtər istiqamətində təxribat planının qarşısı alınıb" - Müdafiə Nazirliyi

**Görülmüş tədbirlər nəticəsində Ermənistan Silahlı Qüvvələrinin kəşfiyyat və xüsusi xidmət orqanlarının Tərtər rayonu istiqamətində yerləşən bölmələrimizə və yaşayış məntəqələrimizə qarşı genişmiqyaslı təxribat fəaliyyətinin həyata keçirilməsini planlaşdırdıqları barədə dəqiq məlumat əldə edilib.**

APA-nın məlumatına görə, bu barədə Müdafiə Nazirliyinin bəyanatında deyilir.

Qeyd olunur ki, görülən effektiv və önləyici tədbirlər nəticəsində düşmənin bu planı vaxtında aşkar olunub: **"Bütün cəbhə boyu əməliyyat şəraiti və ümumilikdə vəziyyət daim nəzarətimiz altındadır. Eyni zamanda xəbərdar edirik ki, düşmənin gələcəkdə də bu cür fəaliyyətinin qarşısı daha sərt şəkildə alınacaq. Görüləcək cavab tədbirləri amansız olacaq və qarşı tərəfin verəcəyi böyük itkilərə görə bütün məsuliyyət Ermənistanın cinayətkar hərbi-siyasi rejiminin üzərinə düşəcək".**

# Baytarlıq Nəzarəti Xidməti Bakıda 100 kiloqram yararsız kolbasa aşkarlayıb

**Bakı Şəhər Baytarlıq İdarəsinin və Binəqədi Rayon Polis İdarəsinin əməkdaşlarının iştirakı ilə Binəqədi rayonu, Rəsulzadə qəsəbəsi, H.Ağamalıyev küçəsi 1 ünvanında yerləşən Həsənov Fuad Alik oğluna məxsus kolbasa məhsullarının satışı anbarına baxış keçirilib.**

Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidmətindən (DBNX) "Report"a bildiriblər ki, baxış zamanı 20 kvadratmetr sahədə, havalandırma və soyuducu sistemi olmayan qarajda soyuducusuz, qeyri-qanuni, antisanitar şəraitdə ümumi çəkisi 100 kiloqram olan kolbasa məmulatının saxlanıldığı və satıldığı aşkarlanıb.

İlkin araşdırma zamanı qarajda "Payim" firmasının istehsal etdiyi saxlanma müddəti bitmiş, kiflənmiş və insan qidası üçün təhlükəli olan "Doktorskaya", bişmiş, yarım hisə verilmiş "Krakovskaya" və yarım hisə verilmiş "Xlbmaya" kolbasa məmulatlarının olması müəyyən edilib.

Aşkar edilmiş kolbasa məhsullarından baytarlıq qanunvericiliyinə müvafiq nümunələr götürülərək müayinə üçün Respublika Baytarlıq Laboratoriyasına göndərilib.

Obyektin qapısı komissiyanın iştirakı ilə möhürlənib və sahə polis müvəkkilinə təhvil verilib.

**Kolbasa məhsullarından götürülən nümunələrin laboratoriya müayinələrinin nəticəsindən asılı olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada tədbir görüləcək.**

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

**Bugünlərdə "Fitch" beynəlxalq reytinq agentliyi "Azərenerji" ASC-nin kredit reytinqini açıqlayıb. Qurumdan bildirilib ki, emitentin uzunmüddətli defolt reytinqi (IDR) "BB+", qısamüddətli IDR isə "B" səviyyəsində təsdiqlənib. Reytinqlər üzrə proqnozlar neqativdir. Proqnozun neqativ olması isə ölkənin suveren reytinqi üzrə proqnoza adekvatdır.**

# Etibar Pirverdiyev vergiləri niyə ödəməyib...

## Hökumət üçün təhlükəli tendensiya - dövlət zəmanəti ilə alınan borcların həcmi artır

Bildirilir ki, reytinqin bu səviyyədə təsdiqlənməsinin əsas səbəbi ASC-nin hökumətlə sıx strateji və əməliyyat əlaqələrinin mövcud olmasıdır. 2015-ci ilin sonuna dövlət şirkətinin borclarının 91%-nə Maliyyə Nazirliyi tərəfindən zəmanət verilib. Bu isə o deməkdir ki, "Azərenerji" həmin borcları ödəməkdə çətinlik çəkərsə, onlar dövlət zəmanəti ilə ödəniləcək.

"Fitch" həmçinin onu da açıqlayıb ki, "Azərenerji"nin SOCAR qarşısında olan vaxtı keçmiş öhdəliyinin yerinə yetirilməsi üçün dövlət zəruri dəstəyini verəcək. Bununla yanaşı, hökumət "Azərenerji"yə 360 mln. manat məbləğində aşağı faizli kredit ayıracaq ki, bu vəsait vergi ödənişlərinə yönələcək.

Bu məsələ bir daha iri təbii inhisarçı şirkətlərin dövlət zəmanəti ilə aldığı borcları, o cümlədən onların milyonlarla manat həcmində olan vergi borclarını gündəmə gətirir. Vergi borcunu ödəmək üçün xarici fondlardan dövlət zəmanəti ilə borc alınması isə büdcəyə iki qat zərbə vurmaq deməkdir. Çünki gələcəkdə bu qurum borcunu ödəmək qabiliyyətində olmasa həmin vəsaitlər dövlət büdcəsindən çıxacaq.

Bu məsələyə toxunan **iqtisadçı-ekspert Natiq Cəfərli** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, bu barədə həyəcan təbili çalmağın vaxtıdır: "Əslində Azərbaycanda dövlət borclarının hesablanmasının özündə böyük problemlər var. Hələlik ancaq dövlətin yalnız özü üçün ayrılmış kreditlər dövlət borcu kimi hesablanır. İki il öncə dövlət borcları ümumdaxili məhsulun cəmi 8 faizi həcmində idi, indi artıq 20 faizi keçib. Ancaq beynəlxalq praktikada belədir ki, dövlət zəmanəti ilə alınmış borclar belə dövlət borcu kimi hesablanır. Bu mənada Azərbaycanın dövlət zəmanəti ilə alınmış borclarının həcmi dövlətin özünün birbaşa götürdüyü borcların həcmindən çoxdur. SOCAR-ın 8 milyard dollardan yuxarı borcu var. Həmçinin "Azərsu"-nun, "Azərenerji"-nin, AZAL-ın dövlət zəmanəti ilə aldığı borclar var. Bir müddət sonra həmin borcları elə dövlət özü ödəməli olacaq. Ya da "Azərenerji" yenidən xaricdən dövlət zəmanəti ilə borc götürərək əvvəlki borclarını qaytaracaq".

**İqtisadçı onu da vurğulandı ki, bundan sonra alınacaq kreditlərin faizi daha yüksək olacaq:** "Çünki Azərbaycanın kredit reytinqi son illər aşağı düşüb. Bu isə həmin qurumların borc yükünü daha da artıracaq. Sonda yenidən dövlətin bu məsələyə müdaxilə etməsi gündəmə gələcək. Ona görə də Azərbaycanda ümumiyyətlə borc siyasətinə yenidən baxmaq lazımdır. Çox təhlükəli bir vəziyyət yaranmaq üzrədir. Hələlik dövlət borcları və dövlət zəmanəti ilə alınan borclar ÜDM-in 60 faizi civarındadır. Ancaq borclanmanın sürəti artıb. Məsələn, bu il ilk dəfə idi ki, Azərbaycan büdcəsinin 12 faizi xarici borcların ödənilməsi üçün ayrıldı. Bu çox böyük bir rəqəmdir. Gələn il bu rəqəm daha yüksək olacaq. 2020-ci ildə isə ümumiyyətlə, büdcənin üçdə birini biz xarici borcların ödənilməsinə yönəldəcəyik. Çünki borcların intensiv qaytarılma dövrü 2020-ci ildən sonra başlayacaq. Bunu nəzərə alaraq,



Etibar Pirverdiyev

Azərbaycanda təhlükəli bir tendensiyanın yarandığını indidən söyləmək mümkündür. Həyəcan təbili çalınmalıdır və dövlət bu siyasətinə yenidən baxmalıdır".

**Natiq Cəfərli vurğuladı ki, dövlət şirkətləri öz borclarını qaytara bilmirlərsə, qismən və ya tamamən özəlləşdirməyə çıxarılması gündəmə gəlməlidir:** "Çünki iri şirkətlərin özəlləşmə üçün bir cəlbediciliyi var. Əsasən də xarici investorları buraya cəlb etmək mümkün olsa, heç olmasa qismən, törəmə şirkətləri və ya xidmət sektorunu özəlləşdirmək mümkündür. Bu da həmin qurumların borc yükünün azalmasına səbəb olacaq. Həm də dövlət büdcəsindən onlara dotasiya ayrılması praktikasına son qoyulacaq. Bu günə qədər bu addımın atılmaması isə onu göstərir ki, burada b-yük qrupların marağı var. Bu maraqlar da ondan ibarətdir ki, şirkətlər dövlət dotasiyası hesabına fəaliyyət göstərir və bunun hesabına da pul qazanan qruplar var. Bu qrupların marağına görə də, hələlik özəlləşdirmə ilə bağlı ciddi addımın atılması gündəmə gəlmir".

**Bu şirkətlərin vergi borclarının həcminin gündən-günə artmasına gəlincə, iqtisadçı bildirdi ki, hazırda çox neqativ bir tendensiya müşahidə olunur:** "Çox tragikomik bir situasiya yaranıb. Bu qurumların vergi borcları illərlə yığılır və bir müddət sonra Nazirlər Kabinetinin qərarı ilə həmin borclar silinir. Bunu öyrəşən dövlət şirkətləri də arxayınlaşır və vergi ödənişlərini vaxtında həyata keçirmirlər.

Bu şirkətlər də hər zaman ziyanla işlədiklərini bəyan edirlər. Ziyanla işləmək də mümkündür, ancaq buna görə cavabdehlik də olmalıdır. Hər hansı dövlət şirkət ziyanla işləyirsə, vergi borcları artırsa, ya həmin şirkətin rəhbəri işdən getməlidir, ya da komanda dəyişməlidir. Amma uzun illərdir ki, vergi borcları yığılır və Nazirlər Kabinetinin qərarı ilə iki-üç ildən bir bu borcların silinməsi prosesi gedir. Bu günə qədər də biz həmin şirkətlərdə komandanın dəyişməsini şahidi olmamışıq".

❑ **Nərgiz LİFTİYEVA**

# İki uşağı anasız qoyan yeniyetmənin anormal həyat tərzi...

## Qənirə Paşayeva: "Qudurğan həyat tərzi heç bir normal insanda rəğbət yaratmır, tam əksinə, nifrət yaradır"

**Bakıda iş adamı Füzuli Fərəcovun 14 yaşlı oğlu Ağəli Fərəcovun (əslində onun 14 deyil, 16 yaşı olduğu bildirilir, sadəcə atası oğlunun məsuliyyətini azaltmaq üçün bu saxtakarlığa əl atır-red.) dəyəri 200 min manata yaxın olan "Porsche" markalı avtomobillə 2 uşaq anasını vuraraq öldürməsi ictimaiyyətdə geniş müzakirələrə səbəb oldu. Əksəriyyət bu hadisəyə görə ilk olaraq ona avtomobil verən ailəni, daha sonra isə 14 yaşlı uşağın şəhərdə avtomobil idarəetməsinə göz yuman cavabdeh qurumları qınadılar.**

*Bəs 14 yaşlı Ağəli Fərəcov kimdir?*

Sosial şəbəkələrdə yayılan foto və informasiyalardan belə aydın olur ki, Ağəli Fərəcovun yaşam tərzi heç də normal həmyaşıdlarının həyatına bənzəməyib. Onun böyük miqdarda pul, bahalı avtomobillərlə, qəlyan çəkərək və digər bu kimi formalarda yaydığı fotolar, bunu deməyə əsas verir. Bildirilir ki, onun bu cür qaydaları pozaraq avtomobil idarəetməsi ilk dəfə deyil. Ümumiyyətlə, 14 yaşlı Fərəcovun əsas məşğuliyyətinin "avtoş"luq etmək olduğu söylənilir. Belə ki, jurnalist Zülfüqar Xeyirxəbər hadisə ilə bağlı sosial mediada qeyd edib ki, hələ bir müddət öncə Ağəli Fərəcov idarə etdiyi avtomobil vasitəsilə onun da qarşısına çıxıb: "99 BS 999" markalı avtomobili idarə edən 14 yaşlı Ağəli ya realdır? Maşını ona verənin təqsiri, avtomobili bilərəkdən verdiyi sübut edilsə, cəmi 180 manat inzibati cəriməsi var (İXM-in 335.3-cü maddəsi)".

**Sabiq polis rəisi Mahmud Hacıyev** "Yeni Müsavat"a bildirib ki, əslində bu uşağa heç bir cəza verilməyə də bilər: "Cinayət Məcəlləsinə baxmaq lazımdır ki, bu cür hadisələr zamanı subyekt neçə yaş götürülür. Əgər subyekt 15-16 yaş götürülürsə, həmin uşağa heç bir cəza düşmür. Hər bir cinayət əməlinin subyektinin yaş həddi var. Qəsdən adam öldürmədə bir yaş həddi, oğurluqda, zorlamada və digər cinayət əməllərində isə fərqli yaş həddi nəzərə alınır. Yeni standart yaş həddi müəyyən edilməyib. Sovet dövründə isə əksər hallarda standart yaş, 16 olaraq götürülürdü. Uşağa cəza düşərsə onu harada saxlamağa gəlincə isə Azərbaycanda azyaşlılar üzrə xüsusi əmək müəssisəsi, yəni uşaq koloniyası da mövcuddur. Hesab edirəm ki, bu uşağın yaşı az olduğu üçün subyekt deyil və ona görə də heç bir cəza verilə bilməz. Hansısa müəssisənin

Fərəcovla bu ilin qış ayında Bakıxanov qəsəbəsində qarşılaşmışıq. Qırmızı işıqda yoluma çıxdı, güclə yayındım. Üstünə qışqırdım, arxamca sürüb, gəlib, qarşımı kəsdi". Z. Xeyirxəbər bildirib ki, daha sonra onların arasında gərginlik yaşanıb və ətrafdakıların müdaxiləsi ilə ara sakitləşib...

Hadisə ilə bağlı xəbər yayıldıqdan sonra 14 yaşlı Fərəcovun həbs edilib-edilməməsi məsələsi də gündəmdən düşmür. Yaşının az olması onu həbsdən yayındırsa da, qanunvericiliyə görə, belə bir vəziyyətdə o, qapalı tipli xüsusi tərbiyə müəssisəsinə göndərilə bilər. Məsələ ilə bağlı **ekspert Ərşad Hüseynov** da sosial şəbəkə vasitəsilə qeyd edib ki, bizdə belə bir müəssisənin olub-olmamasından məlumatsızdır: "Varsa, kağızdadır,

yerləşdirilməsinin özü də cəzadır".

Hadisəyə deputatlar da reaksiya verdilər. **Deputat Qənirə Paşayeva** sosial şəbəkədəki şəxsi hesabında bildirib ki, o yaşda bir uşaq məktəbdəki təhsili ilə, əxlaqı, çalışqanlığı ilə fərqlənməlidir:

"Bir az öncə çox bahalı avtomobili ilə 24 yaşlı iki uşaq anasını öldürən 14 yaşlı azyaşlının (bəziləri 16 olduğunu yazır) sosial mediada paylaşılan şəkillərini gördüm. İçki içərkən, qəlyan çəkərkən və sair... Həmin fotolardan baxan uşağın həyat tərzini təxmin etmək çətin deyil. Kimsə "ata-analar öz övladlarını necə bədbəxt edirlər" deyə danışanda bu hadisəni diqqətdən qaçırmamalıdır. Atanın mətbuatdakı açıqlamalarını baxdım. Böyük təəssüf, qınaq və hiddət hissi ilə... Bu cür atalara demək istəyirəm ki, milləti düşünmürsünüzsə, heç olmasa, övladınızı, onun gələcəyini düşünün! Bir uşaq əlində içki, ağız dolusu qəlyan tüstüsü, bahalı maşın pozaları ilə qürur duymamalıdır, bunu etməməlidir. Bu onun gələcəyinin məhv olması deməkdir. Neçə-neçə insanın həyatını məhv etməsi deməkdir. O yaşda bir uşaq məktəbdəki təhsili ilə, əxlaqı, çalışqanlığı ilə fərqlənməlidir. O pulları uşaqlarınızın məhvinə deyil, kasıblara, ehtiyacı olanlara, yaxşı bir işə dəstəyə xərcləyin və uşağınız da sizin bu əməllərinizi görüb doğru tərbiyə olunsunlar. Onsuz da sizin pulunuz Allah nəsib etsə, övladınıza qalacaq. Kiçik yaşlarda yazıq etməyin övladlarınızı, korlamayın onların tərbiyəsini... Sonra da əziyyətini sizdən çox başqaları çəkir və buna haqqınız yoxdur. Qudurğan həyat tərzi heç bir normal insanda rəğbət yaratmır, tam əksinə, nifrət yaradır. Qanunlar, hüquq öz yerində və eyni zamanda ümid edirik ki, ədalət yerini tutacaq. Amma əgər bir az vicdan anlayışı varsa, o ailə və iki uşaq anasını yetim qoyan o "uşaq" bir ömür vicdan əzabı çəzası çəkəcək. Yetər! Hər kəs pulu özü üçün qazanır və ondan başqalarını əzmək üçün istifadə etməyə heç kəsin haqqı yoxdur".








❑ **Əli RAİS**



# "Porşe"li qatilləri qudurdanlar

Xalid KAZIMLI

**Yanıla bilərəm, amma mənə elə gəlir ki, Bakıxanov qəsəbəsində "Porşe Gayenne" markalı bahalı avtomobillə qəza törədərək 24 yaşlı qadını - iki uşaq anasını öldürən Fərəcov soyadlı yeniyetmənin yaşı 14-dən artıqdır.**

Şəkillərinə baxdım, gözümə yaşı böyükmüş kimi göründü -azı 16 yaş. Sənəd göstərsəydilər, yaxşı olardı, şübhəyə yer qalmazdı.

Əgər belə deyilsə, onda oğlanın 14 yaşlı olmasını qəsdən ortaya atıblar ki, onu məsuliyyətdən yayındıra bilsinlər. Çünki cinayət törədən şəxslərin məsuliyyətə cəlb edilmə yaşı məhz 14-dür. Cinayət hadisəsi törədilən zaman şəxsin 14 yaşı tamam olmayıbsa, onun cinayət məsuliyyətinə cəlb edilməsi imkanı məhduddur, yox, həmin gün o, 14 yaşını tamamlayıb, 15-dən bir gün alıbsa, demək, ciddi şəkildə mühakimə oluna bilər.

Ağəli Fərəcovun yaşının üstünə basıla-basıla 14 göstərilməsi nəsə bir az şübhəli görünür.

Ancaq əsas məsələ bu deyil. İnsan ölümünə səbəb olan şəxsin yaşı istər 10 olsun, istər 80, ortada cinayət var, ölüm hadisəsi, faciə var. Demək, kimsə də buna görə məsuliyyət daşımalıdır.

Söz yox, ən böyük günahkar ağır qəzanı törədən şəxsin özüdür. Tay-tuşları velosiped sürdüyü halda, onun "Porşe" kimi bahalı maşında avtoxuliqanlıq etməsi, təlim-tərbiyəsindəki axsaqlığı göstərməklə yanaşı, özünün canındakı iddianı da göstərir. O, həmin gün olmasa da, bir sonrakı gün, gələn il, o biri il o qəzanı törədəcək, kiminsə həyatına son qoyacaqdı.

Həddi-büluğa çatmamış və təbii ki, sürücülük vəsiqəsi, eləcə də sürücülük qabiliyyəti olmayan şəxsə idarə etməsi üçün avtomobil vermək də məsuliyyət yaradır, bu, təxminən azyaşlıya avtomatik tüfəng vermək kimi bir şeydir. Hər iki halda onlar onu idarə edə bilməyəcək, can alacaqlar. Demək ki, Ağəlinin biznesmen atasının da bu hadisədə ciddi məsuliyyət payı var - həm inzibati, həm də mənəvi baxımdan.

Ən pisi budur ki, bu, Azərbaycanda baş verən ilk bənzər hadisə deyil. Bundan əvvəl də öz bahalı maşınları ilə günahsız piyadaların, başqa avtomobildə sərnişin olan insanların ölümünə bais olan harın övladlar çox olub.

Bu hadisələrdən bəziləri mediaya çıxıb qalmaqala çevrilsə də, bir çoxu ustalıqla ört-basdr edilib. Üstü açılmayan ağır avtoqəzalar həmin qəbildəndir. Şəhərdə minlərlə müşahidə kamerasının olduğu bir vaxtda yalnız gözəgörünməz varlıqlar qəza törədib aradan çıxa bilərlər. Belələri isə, bildiyimiz kimi, yoxdur. Avtomobilinə oturub şəhərin küçə və yollarına çıxan hər bir şəxs nəzarətdədir və heç kəs gözə görünmədən yerdəyişmə edə bilməz.

Bu, o deməkdir ki, qəza törədən harın övladların cinayət məsuliyyətindən yayındırılması faktları var.

Onlar bəzən məsuliyyətə cəlb edilsələr də, çox asanlıqla ağır cəzalardan qurtulurlar və qısa müddətdən sonra yollara çıxıb canavara dönürlər. İki-üç il öncə ağır qəza törədərək, bir neçə insanın ölümünə səbəb olan Xalid Mədətov adlı 40-42 yaşlı şəxs artıq azadlıqdadır. Bəlkə də onun həlak etdiyi insanlar daha bir məşhur insanın - xalq artisti Ağasəlim Abdullayevin ailə üzvləri olmasaydı, sıravi adamlar olsaydı, məmur oğlu ümumiyyətlə həbsə girməyəcəkdi.

Nə yazıq ki, bu ölkədə harın övladların, qudurğan züryətlərin önünü kəsmək, onları durdurmaq mümkün deyil. Bu şəxslər heç bir qayda-qanuna riayət etmədən yaşayır, önlərinə keçənləri basıb əzə bilirlər.

Bütün bunlar ona görə baş verir ki, belələrinin yüksək mənsəb tutan, böyük sərvətə malik olan valideynləri özlərini qanunların fövqündə hiss edir, balalarını "dolaşdıracaq" hər kəsi pulla alacaqlarını düşünür və buna müvəffəq olurlar.

**Cəmiyyət üçün, hər birimiz üçün təhlükə demək olan bu azyaşlı və çoxyaşlı avtoxuliqanları, hər addımda harınlıq-qudurğanlıq sərgiləyənləri cəzalandırmaqla yanaşı, onları qudurdan valideynləri də ciddi şəkildə cəzalandırmaq lazımdır. Bunun mexanizmi tapılmalıdır. Vəzifəli ata cinayət törədən övladına görə cavab verməlidir. Çünki onun cinayətinin arxasında həmin atanın haram yolla qazandığı pullar durur.**

# Ziya Məmmədov "qara dairədə"

## Senatorların tələb etdiyi araşdırmalar Məmmədovların qurban verilməsi ilə sonuclana bilər; eks-nazirin təyyarəsinin indiki məqamda əlindən alınması maraq doğurur

**Sabiq nəqliyyat naziri Ziya Məmmədovun ətrafında halqa daralmaqdadır. 1 ay əvvəl bir qrup amerikalı senator prezident Donald Trampın şirkətinin Azərbaycanda korrupsiya pozuntusunda şübhəli bilinən və İran İslam İnqilabı Keşikçiləri Korpusu (SEPAH)ilə bağlılığı olan fəaliyyətinin araşdırılması üçün Birləşmiş Ştatların Baş Prokurorluğuna, Maliyyə Nazirliyinə, Federal Təhqiqatlar Bürosuna müraciəti olub.**

Həmin müraciətlərində senatorlar Şerrod Braun, Dayen Faynstayn və Ben Kardin "Trump Organization" otellərinin inşası ilə bağlı araşdırma aparılmasını tələb ediblər. Məlum olduğu kimi, Donald Tramp prezident seçilənə qədər onun şirkəti Azərbaycanda Ziya Məmmədovun oğlu Anar Məmmədov və qardaşı Elton Məmmədovla birgə otel tikintisini gerçəkləşdiriblər. Senatorlar həmçinin "Trump Organization" tikinti şirkətinin Azərbaycandakı biznes ortağı vasitəsilə ABŞ-ın sanksiya tətbiq etdiyi İran İslam Keşikçiləri Korpusu ilə mümkün gizli əlaqələrinin olmasına dair ehtimalların araşdırılmasını tələb edib. Bu araşdırmaların özü Trampın Azərbaycandakı şəriklərinə yaxşı heç nə vəd etmir.

Hazırda Bakıda yerləşən 72 mənzildən və 189 otel otağından ibarət 33 mərtəbəli "Trump Tower"in adı dəyişdirilib. Amma Məmmədovlar elə həmin otel böyüklüyündə problemlə üz-üzədirlər.



Ziya Məmmədov

Senatorların araşdırma tələbindən sonra Azərbaycanda Məmmədovlara qarşı zəif də olsa hərəkətlilik sezilməkdədir. Z.Məmmədovun şəxsi təyyarəsini müsadirə ediblər. Ziya Məmmədovun "Gulf Stream" markalı şəxsi təyyarə aldığı Azərbaycan ictimaiyyətinə 2012-ci ilin yayından bəlli olmuşdu. O zamandan bu yana - son günlərə qədər həmin şəxsi təyyarə Ziya Məmmədovun istifadəsində olub. Hökumətdən bir qərarla qovulan Ziya Məmmədovun təyyarəsi uzun müddət özündə olub. Amma senatorların məlum araşdırma tələbindən sonra bu imtiyazı da ləğv edilib. Ondan şəxsi təyyarəsini "dinməz-söyləməz gətirib təhvil vermək" tələb olunub və tələb yerinə yetirilib.

Əgər bu araşdırmalar başlansa, ABŞ Azərbaycandan bir sıra sənəd və dəlillər tələb edəcək. Bu isə Birləşmiş Ştatların Azərbaycana təzyiqlərinin artması ilə müşahidə oluna bilər. Çünki burada söhbət yalnız korrupsiyadan deyil, hətta Trump-Məmmədovlar əməkdaşlığının ABŞ-ın terrorçu təşkilat kimi tanımaq istədiyi İran İslam İnqilabı Keşikçiləri Korpusu ilə gizli əlaqələrinin olmasından gedir. Senatorların müraciətində ABŞ qanunvericiliyinin pozulduğu xüsusi vurğulanır. Belə vəziyyətdə rəsmi Bakı özünü sığortalamaq üçün Z.Məmmədovu və ya onun yaxınları barədə həbs qərarı çıxartmaq məcburiyyətində qalmalı olacaq.

**Bu arada Z.Məmmədovun yaxınlarının adı qarışan jurnalist Fərahim İlqaroğlunun döyülməsi işi üzrə yenidən araşdırma aparılması da gündəmə qayıdıb. Bu iş də Məmmədovlara yaxşı heç nə vəd etmir.**

❑ E.HÜSEYNOV

# Deputat qanun-qayda tanımayan zənginlərə səsləndi

## Zahid Oruc: "Vətəndaş maddi zənginliyə qovuşubsa, nəzərə almalıdır ki, bu, başqası üzərində hökmranlığa səbəb ola bilməz"

**Mayın 3-də böyük kapitala malik iş adamı kimi tanınan Füzuli Fərəcovun azyaşlı oğlunun idarə etdiyi "Porsche" markalı avtomobillə 24 yaşlı xanımı vuraraq öldürməsi oliqarx övladlarının heç bir qayda-qanun tanımayan həyat tərzi sürmələri və nəticədə bədbəxt hadisələrə yol açıldığı problemini yenidən ictimai müzakirəyə gətirib. Sürücülük hüququ olmayan yeniyetmələrin avtomobil idarə etdikləri, ağır qəzalar törətdiyi, hətta bəzən onları saxlayan polisə tabe olmayıb polisləri təhqir edib polisə əl qaldırdıqları hallarına vaxtaşırı rast gəlirik. Bu barədə mediada məlumatlar, videomateriallar yayılır.**

Ölkə prezidenti də dəfələrlə çıxışlarında məmurlara, imkanlı şəxslərə müraciət və xəbərdarlıqlar edir ki, məmur olmaq, varlı iş adamı olmaq heç kimə, heç kimin övladına, yaxınlarına harınlıq etmək, qanunları saymamaq imtiyazını vermir.

Lakin belə görünür ki, hələ də bu çağırışlardan nəticə çıxarmayanlar var. Nəticədə isə bədbəxt hadisələr baş verir, cəmiyyətdə narazılıqlar yaranır. Cəmiyyətdə belə fikirlər yaranır ki, vəzifəli və imkanlı şəxslərin övladlarının törətdikləri qanunsuz əməllərə hüquqi qiymət verilmədiyi üçün bəzilərində arxayınlıq yaranır. Cəzasızlıq mühiti yeni bədbəxt hadisələrin törədilməsinə rəvac verir.

Bu barədə fikirlərini "Yeni Müsavat"la bölüşən **deputat Zahid Oruc** bildirdi ki, ölkə rəhbərinin idarəçilik fəlsəfəsi məsuliyyətlilik, şəffaflıq, hesabatlılıq, abadlıq, cəmiyyətə açıqlıq, sadəlik fəlsəfəsi üzərində qurulub. Bunu hər kəs özü üçün bir nümunə götürməlidir: "Baxın, ölkə başçısının özü, ailəsi və övladları həmin xətt üzrə ötən illər ərzində Azərbaycan cəmiyyətinə necə yüksək ləyaqətlə xidmətin nümunəsini yaradıblar. 10 minlərlə insan Heydər Əliyev Fondu xətti ilə yardımlar alıb. Lakin paralel şəkildə siz virtual məkanda və digər informasiya müstəvilərində hörmətli Leyla xanım Əliyeva tərəfindən ayrı-ayrı insanlara yardım, xeyirxahlığın bölüşdürülməsi, hansısa məqamda insanlara xüsusi köməkliklərin göstərilməsi və ya Azərbaycan mənafeyinə bağlı çağırışlarda bulunması barədə informasiyalar yayıldığını da müşahidə edirsiniz. Bunlar məncə ən yaxşı nümunədir. Ölkənin birinci şəxsinin övladı bax bu cür ən yaxşı nümunə göstərir. Hər kəs bu nümunələri öz fəaliyyətində təkrar eləməlidir. Mənə elə gəlir ki, ötən illər ərzində cənab prezidentin məmurlara çağırışları məmurlar tərəfindən böyük dərəcədə qəbul olunub. Bu çağırışlara əməl olunması yönündə addımlar atılmaqdadır. Ən azı idarəetmə sisteminə bağlı qeyd olunan əvvəlki problemlər xeyli dərəcədə azalıb. Lakin təəssüf ki, cəmiyyətdə bəzən məmur olmayan imkanlı şəxslərin, varlı adamların, onların övladlarının hansısa fəaliyyətinin hakimiyyətlə əlaqələndirilməsi meyli müşahidə olunur. Xüsusilə, 14 yaşlı uşağın törətdiyi son avtomobil qəzası hadisəsində iqtidarın məsuliyyətini axtarmaq olmaz. Cənab prezident də vaxtı ilə söyləmişdi ki, əgər hansısa bir biznes adamı qanunun əleyhinə, ictimai mənəviyyat ziddinə addımlar atırsa, öz zənginliyini nümayiş etdirib başqalarının kasıblığına həqarət edirirsə, özünə zərbə vurur. Ona görə də ümumən hesab edirəm ki, məmur etikası məsələsində Azərbaycan cəmiyyətində bərkimiş mövqelər ən yüksək şəkildə bu dövlətin siyasi beyin mərkəzi institutu tərəfindən nəzərə alınır. Məmur sistemi həddən artıq genişdir və istəmirəm ki, istənilən bir problemi ümumiləşdirilmiş şəkildə məmurlar əleyhinə çevirək".



Zahid Oruc

**Deputat dedi ki, vətəndaş maddi zənginliyə qovuşubsa, nəzərə almalıdır ki, bu, başqası üzərində hökmranlığa səbəb ola bilməz:** "Yaşayış minimumu müəyyənləşdirmək mümkün olsa da yaşayış maksimumu haqqında heç bir qanun, limit yoxdur. İnsanlar nə qədər istəsələr o qədər var-dövlət əldə etməyə hüquqları var. Məşhur Rokfeller dəfələrlə ürək əməliyyatına getməsinə, on dəfələrlə qara ciyərini dəyişməsinə baxmayaraq əbədi ömür hasil eləyə bilmədi, o sərvət Rokfelləri bu dünyada əbədi saxlamadı. Çünki əbədi bu dünyada qalmaq mümkün deyil. Varlı olmaq özünü öymək, kasıb olmaq başını aşağı dikmək vasitəsi ola bilməz. Bir imkanlı iş adamının övladının törətdiyi məlum hadisənin ölkədə məmurlar sisteminin əleyhinə çevrilməsini istəmirəm".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 5-də Avropa Şurası baş katibinin müavini xanım Qabriella Battaini Draqoni ilə görüşüb.**



# Prezident İlham Əliyev Avropa Şurası baş katibinin müavini ilə görüşdü

## "Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır"

Musavat.com-un xəbərinə görə, bu barədə Azərbaycan Respublikası Prezidentinin mətbuat xidməti məlumat yayıb.

Görüşdə Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlığın səviyyəsindən məmnunluq ifadə edilib.

Bakının yüksək səviyyədə ev sahibliyi etdiyi IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətinə toxunan Qabriella Battaini Draqoni bildirib ki, bu tədbir Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu artırır və mədəniyyətlərarası dialoqun inkişafına mühüm töhfə verməklə ölkəmizin bu sahədə rolunu daha da gücləndirir.

Bu cür mötəbər tədbirdə iştirakından məmnunluğunu bildirən Qabriella Battaini Draqoni qeyd edib ki, Azərbaycan mədəniyyətlərarası dialoqun inkişafında mühüm rol oynayır. Bu Forum Azərbaycanın mədəniyyətlərarası dialoqa verdiyi yüksək dəyərin göstəricisidir. "Bakı prosesi" artıq dünyada böyük nüfuz qazanıb", - deyən Avropa Şurasının rəsmisi təmsil etdiyi qurumun Azərbaycan ilə əməkdaşlığa böyük əhəmiyyət verdiyini və əlaqələri daha da möhkəmləndirmək istədiklərini deyib. Qabriella Battaini Draqoni vurğulayıb ki, Azərbaycan Avropa Şurasının çox mühüm üzvlərindən biridir və Azərbaycan ilə əməkdaşlıq bizim üçün çox faydalıdır.

Avropa Şurası ilə əməkdaşlığın ölkəmiz üçün də faydalı olduğunu deyən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, Azərbaycan bu əlaqələrə böyük əhəmiyyət verir. Dövlət başçısı dedi ki, müəyyən məsələlərdə biz də bu əməkdaşlıqdan faydalanırıq və ona görə bu əlaqələrin inkişafına əhəmiyyət veririk. Biz Avropa Şurası ilə konstruktiv əməkdaşlığı davam etdirmək istəyirik.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan demokratik, dünyəvi, müasir dövlət qurur və bununla bağlı bütün tədbirləri həyata keçirir. Azərbaycanda bütün azadlıqlar, o cümlədən siyasi, ifadə, sərbəst toplaşma, mətbuat və internet azadlıqları hərtərəfli təmin edilib.

Dövlət başçısı deyib ki, Azərbaycan təkcə Avropa Şurası ilə deyil, eyni zamanda, Avropa İttifaqı, NATO ilə, həmçinin digər Avropa və beynəlxalq strukturlarla da əməkdaşlıq edir.

**Söhbət zamanı qarşılıqlı etimadın təmin olunması ilə əməkdaşlığın davam etdirilməsinin vacibliyi bildirilib.**

# "Düşünmürəm ki, bu qanun deputatları tənqidi fikirlər söyləməkdən çəkindirəcək"

## Rüstəm Xəlilov: "Mən indiyə qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olmamışam, heç vaxt da olmayacağam"

## "Başqa sahədə kimsə kiməsə hədiyyə verirsə, onun kimə nə dəxli var?"



Deputatların əksəriyyətini ciddi şəkildə narahat edən "Azərbaycan Respublikası Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanun layihəsi ilk oxunuşdan keçdi. Ancaq ötən iclasda spiker Oqtay Əsədov layihənin bəzi hissələrinin yumşaldılması barədə göstəriş verdi ki, bu da bəzi deputatları ümidləndirib.

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Tahir Kərimli**nin mediaya dediklərindən belə aydın olur ki, bu qanun sahibkarlıq fəaliyyəti ilə məşğul olan deputatların başının üstündəki "qara bulud"dur. "Məsələn 5-ci maddədə göstərilib ki, sahibkarlıqla məşğul olan deputatlar mandatdan uzaqlaşdırılır. Buna da Mərkəzi Seçki Komissiyası baxır. Bu maddənin qanuna, İntizam Komissiyasına heç bir dəxli yoxdur. Bu kimi maddələrə digər deputatlar da etiraz edib. Oqtay müəllim də bildirdi ki, bu məsələlərin üzərində ciddi işlənilməlidir" - T.Kərimli Modern.az-a bildirib. Onun sözlərinə görə, qanun layihəsində ilk növbədə deputatın özünü müdafiəsi öz əksini tapmalıdır.

Elə **deputat Fazil Mustafa** da əməkdaşımıza bildirdi ki, bu qanunun yumşaldılması əsasən deputat mandatından məhrum etmə ilə bağlı ola bilər: "Dünyanın heç yerində etik davranışa görə mandatdan məhrum etmə yoxdur. Qalan məsələlər o qədər də prinsipial əhəmiyyət daşımır. Hər halda bir çox müddəalarda yumşalma gözlənilir".

*Bəs, digər deputatlar necə düşünür? Xüsusilə də adları sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar sırasında çəkilənlər narahatdırlarmı?* Bu kimi suallarla parlamentin bir sıra deputatlarına müraciət etsək də, onlarla danışmaq mümkün olmadı. **Yeni Azərbaycan Partiyasının üzvü, Regional məsələlər komitəsinin nümayəndəsi Rüstəm Xəlilovla** danışa bildik. Ancaq onun məsələyə münasibəti tam fərqli oldu.

***- Rüstəm bəy, Milli Məclisdə ilk oxunuşdan keçən Azərbaycan Respublikası Milli Məclis deputatının etik davranış qaydaları haqqında" qanun layihəsinə münasibətiniz necədir? Bir çoxları bu qanunu deputatlar üçün təhlükə sayırlar.***

- Əlbəttə ki, biz az yumşaq formada qəbul olunsa, yaxşıdır. Ancaq hər qurumlarda etika davranış qaydası olduğu kimi, yəqin ki, deputatlarda da olmalıdır. Əslində bu, vacib məsələdir. O qədər də sərt qaydalar olmamalıdır, amma dediyim kimi etik davranış qaydalarına əməl olunmalıdır. Ümumiyyətlə, gərək deputat davranışlarına diqqət yetirə. Heç qanun olmasa belə, hər bir şəxs özünün davranışlarına cavabdehdir. Artıq əgər bu məsələ qanuniləşirsə, hamının borcudur ki, qanuna əməl etsin.

***- Bəzi həmkarlarınız hesab edir ki, bu qanunun bəzi müddəaları deputatları tənqidi çıxışlar etməkdən çəkindirəcək. Siz bu barədə nə düşünürsünüz?***

- Mən düşünmürəm ki, bu qanun deputatları tənqidi fikirlər söyləməkdən çəkindirəcək. Əgər deputat bir fikir söyləyirsə, onun fikrinə müdaxilə etmək, yaxud onunla bağlı başqa birisinin fikir söyləməsi də düz deyil. Amma burada başqa məqsədlə yox, reallığa, dövlətçiliyə, xalqa xidmət edən fikir söylənilsə, bunun nəyi pisdir ki? O halda deputat niyə çəkinməlidir ki? Ola bilər ki, hansısa bir şəxs öz marağına uyğun olaraq çıxış edərsə, əlbəttə, birmənalı qarşılanmayacaq.

***- Hesab olunur ki, bu qanunun ən böyük zərbəsi sahibkarlıq fəaliyyəti ilə məşğul olan deputatlara dəyəcək. Ara-sıra sizin də sahibkarlıq fəaliyyəti ilə məşğul olduğunuz deyilir...***

- Mən indiyə qədər sahibkarlıq fəaliyyəti ilə məşğul olmamışam, heç vaxt da olmayacağam.

***- Artıq üçüncü çağırışdır Milli Məclisdə təmsil olunursunuz. Ümumiyyətlə, deputatın sahibkarlıq fəaliyyəti ilə məşğul olmasını necə qiymətləndirirsiniz?***

- Mən hesab edirəm ki, ən azından biz konstitusiyamıza hörmətlə yanaşmalıyıq. Hər bir şəxs özünə cavabdehdir. Mən bilmirəm axı orda kimlər hansısa formada, nə ilə məşğul olur.

***- Bu kimi deputatların yeni qəbul olunacaq qanuna əsasən mandatdan məhrum edilməsini necə, doğru sayırsınız?***

- Mən onu deyə bilmərəm. Gərək o sübut oluna ki, sahibkarlıq fəaliyyəti var, bizneslə məşğuldur, bu, başqa məsələdir. Konkret fikir söyləməyim doğru olmaz. Amma ümumiyyətlə, bizim konstitusiya deputata bu fəaliyyət növü ilə məşğul olmaq icazəsi vermir. Bu, mənim fikrim deyil, konstitusiyada təsbit olunub ki, deputat heç bir biznes növü ilə məşğul olmamalıdır.

***- Qanun layihəsində deputatın 50 manatdan yuxarı məbləğdə hədiyyə alması da qadağan olunur. Bəs, bununla bağlı nə deyə bilərsiniz?***

- Çox yaxşı, onun nəyi pisdir ki? Başqa sahədə kimsə kiməsə hədiyyə verirsə, onun kimə nə dəxli var? Amma əgər söhbət deputat fəaliyyəti ilə bağlı hədiyyədən gedirsə, bu, yolverilməzdir və mən qanunu dəstəkləyirəm. Orada söhbət işlə, fəaliyyətlə bağlı hədiyyədən gedir. Heç o qanunda təsbit olunmasa da, vicdanlı adam onu qəbul etməli deyil.

***- Görürəm ki, qanuna münasibətiniz digər həmkarlarınızdan ciddi şəkildə fərlənir. Baxmayaraq ki, sədr də müəyyən yumşaldılmalara ehtiyac olduğunu deyib. Bəs, sizi bu qanun layihəsində ən çox narahat edən hansı hissədir?***

- Demək olar ki, məni orda heç bir məqam narahat etmir. Hər bir sahədə olduğu kimi, Milli Məclisdə də etik davranış qaydalarına hamı riayət etməlidir. Söhbət təkcə deputatlardan da yox, bütün qurumlarda çalışan insanlardan gedir, hər bir insan qanunun qarşısında aciz olmalıdır. Ona görə də məni hər hansı məqam narahat etmir. Həmkarlarımın da fikrinə hörmətlə yanaşıram, hər kəs öz fikrini söyləmək hüququna malikdir.

**Elşad PAŞASOY**

# Eldar Mahmudovun məhkəməyə gətirilməsi tələb olunur

## “MTN işi”ndə 2 zərərçəkən israrla sabiq nazirin dindirilməsini tələb edir

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) Antiterror Mərkəzinin rəis müavini, həbsdə müəmmalı şəkildə dünyasını dəyişən polkovnik İlqar Əliyevin istintaq zamanı verdiyi ifadə geniş rezonans doğurub. Eldar Mahmudovun əleyhinə olan ifadədə iş adamı Maqsud Mahmudovun hədələnməsi geniş şəkildə təqdim olunur. Belə aydın olur ki, Eldar Mahmudovun göstərişi ilə iş adamını şərləyib MTN-ə aparıblar.**

Eks nazirin göstərişi əsasında ondan 150 min dollar tələb olunub və 120 min dollar alınaraq azad edilib. İfadəyə görə, həmin pulun 70 min dolları Eldar Mahmudova çatıb. Bu ifadə ortaya çıxandan sonra İ.Əliyevin rəisi olmuş, hazırda məhkəmə qarşısına çıxarılan Elçin Quliyev məhkəməsində Maqsud Mahmudovun əleyhinə çıxış edib, onun barəsində xoşagəlməz fikirlər səsləndirib. Məsələ ilə bağlı M.Mahmudovu aradıq. O, Elçin Quliyevin məsuliyyətdən yayınmaq üçün barəsində iftira söylədiyini bildirdi: “İlqar Əliyev hazırda haqq dünyasındadır. O, ifadəsində nə yazıbsa, hamısı düzdür. Məni ora aparıblar, əziyyət veriblər, işgəncə veriblər. Azər Mehdiyevin otağında təzyiqim qalxıb, özümü pis hiss etmişəm. İlqar Əliyev bunları düz yazıb. Onun ifadəsi mətbuatda dərc olunandan sonra Elçin Quliyevin məhkəməsi oldu. Mən ona general deməzdim. O, məhkəmədə ifadəsində dedi ki, Mahmudov Maqsud dələduzdur, onun porno-videoları yayılıb. Mənə maraqlıdır, ortaya 1 sənəd gətirib qoysun. Mənim harada cinayət işim olub?”


Eldar Mahmudov

**“Bəs antiterrorun rəis müavini İlqar Əliyev də yalan yazıb?”**

M.Mahmudov deyir ki, E.Quliyevin onu hədəf almasının özəl səbəbi var: “İş üzrə 22 zərərçəkən var. Zərərçəkənlərin əksəriyyəti nədənsə çəkinir. Mən isə Eldar Mahmudovun məhkəməyə gəlməsini tələb edirəm. Mənə deyir ki, guya mənə vurulan zərərin ”summa"sı o qədər olmayıb. Mən yalan deyirəm. Bəs antiterrorun rəis müavini İlqar Əliyev də yalan yazıb? Ayaz Gərayzadə(ləğv olunmuş MTN-in işçisi-E.M) də yalan yazıb? Axı o da bu ifadələri təsdiq edir. Ayaz Gərayzadə mənim məktəb yoldaşım olub. Məni MTN-ə o aparıb və Azər Mehdiyevə təhvil verib. Pulun 60 minini o aparıb verib. Bu ifadəsi də var. Bu da yalandır? Elçin Quliyev və Azər Mehdiyev kimi cinayətkarları nədənsə qıcıqlandırır ki, mən haqqımı tələb edirəm. Zaldakıların əksəriyyəti nədənsə çəkinirlər".

**“Bizim pullarımız şahın - Eldar Mahmudovun cibinə gedib”**

M.Mahmudov deyir ki, onun tələbi Eldar Mahmudovun məhkəmə zalına gətirilərək sorğu-sual olunmasıdır: “Elçin, Azər və başqaları şahmat oyununda olduğu kimi piyadadırlar. Mən şahı tələb edirəm. Çünki bizim pullarımız şahın - Eldar Mahmudovun cibinə gedib. Bir vaxtlar demişdim - niyə bizim brilyantlar Eldar Mahmudovun balonundan çıxmalıdır?”

“Elçin Quliyev məhkəmə zalında elə oturur ki, elə bil indi onu açıb buraxacaqlar”

İş üzrə zərərçəkən kimi tanınan M.Mahmudov deyib ki, onun əlindən alınmış əmlakları üzrə məhkəmələrdə mülki iddia qaldırıb və qərarlar çıxarılıb: “MTN müstəntiqi Cavid Quluzadə restoranımı ələ keçirmişdi. Nərimanov və Apelyasiya Məhkəmələrini udmuşam. Mən haqqımı tələb edirəm. Təəssüf ki, iş üzrə zərərçəkən olan digər vətəndaşlar nədənsə çəkinirlər, açıq danışmırlar. Mən nədən qorxmalıyam? Bizim prezidentimiz, vitse-prezidentimiz və qanunlarımız var. Nədən qorxub çəkinməliyik? Elçin Quliyev məhkəmə zalında elə oturur ki, elə bil indi onu açıb buraxacaqlar. Tələb edir ki, məhkəmə qapalı keçirilsin. Niyə görə qapalı keçirilməlidir? Qoy açıq keçirilsin və jurnalistlər də iştirak etsin”.

**“Pulun 70 mini Eldar Mahmudova verilibsə, niyə görə o, bayırda olmalıdır?”**

M.Mahmudov iş üzrə keçirilən son 3 proses haqda bunları deyib: “Son 3 prosesdə zərərçəkənlərdən mən və MTN-də çalışmış, orada işləyə-işləyə özünü asan şəxsin qardaşı tələb edirik ki, Eldar Mahmudov bura gəlməlidir və cavab verməlidir. Bugünkü gün tələbim budur. Elçin kimilərinin, Azər kimilərinin cavabını haqq-ədalət verəcək. Əgər İlqar Əliyev orada deyirsə ki, məndən alınan pulun 70 mini Eldar Mahmudova verilibsə, niyə görə o, bayırda olmalıdır? Bunu ki, mən demirəm, öz işçiləri olan polkovnik deyir. Öz işçiləri Ayaz Gərayzadə izahatlarında deyir. Bunlar mən yox, onlar deyir. Bunlar cinayətkardılarsa, cinayətin başında dayanan da Eldar Mahmudovdur. Mənə Elçin Quliyevin vəkili deyir ki, niyə görə 1 milyon 400 minlik vəsatət qaldırmısan. Çox gözəl, deyim. Məni tutub saxladıqları gün gecədən səhərə qədər 100 kvadrat metrlik oboy dükanını 120 minə satdıranda yaxşı idi? İndi gəlin görün Səməd Vurğun küçəsi ilə İnqilab küçəsinin kəsişməsində həmin pula dükan almaq olar? Mən pulumu istəyirəm, halal yerimi istəyirəm. Onların haram qazandıqları özlərinə qismət olsun. Mən halal yerimi istəyirəm”.

❑ E.MƏMMƏDƏLİYEV

# İltimas Məmmədov nazir müavini postunda necə qaldı?

## Müxalif partiya sədrindən maraqlı açıqlamalar; “Korrupsiyanın kökü ona görə birdəfəlik kəsilmir ki…”

**Mayın 3-də Bakı Ağır Cinayətlər Məhkəməsində məhkəmədə və vəzifə səlahiyyətlərindən sui-istifadə etməkdə təqsirləndirilən keçmiş Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) sabiq Aparat rəhbəri Vidadi Zeynalov sözügedən nazirlikdə nazirin birinci müavini işləmiş İltimas Məmmədova *(Hazırda Nəqiyyat, Rabitə və Yüksək Texnologiyalar nazirinin müavinidir. red.)* qarşı ifadə verib.**

**V.Zeynalov vəzifədə işlədiyi dövrdə nazirliyin rəhbərliyinin göstərişini yerinə yetirdiyini söyləyib:** “Mən ictimaiyyətdə cinayətkar kimi göstərildim. Buna görə də ifadə vermək istəyirəm. Deyəcəklərim çoxdur. Amma özümü yormaq istəmirəm. Qoy səbəbkar vicdan əzabı çəksin. Əsl günahkarların cəzalandırılmasına çox az qalıb. Mən və həbsxanada olan digər şəxslər də bu günü gözləyir. Sabiq nazir müavini İltimas Məmmədov bu işlərdə daha çox günahkardır. O, 3 dəfə beynəlxalq tədbirlərdə bilərəkdən təxribat törədərək, keçmiş nazir Əli Abbasovun işdən çıxarılmasına nail olmaq istəyirdi. Əli Abbasovun yerinə keçmək istəyən İltimas Məmmədov niyə həbs edilməyib? Ən azından o, məhkəmədə gəlib şahid qismində ifadə verməli idi. Çünki pulların çoxu ona çatmışdı”.

Qeyd edək ki, “rabitə çetesi”nin məhkəməsi başlanandan İltimas Məmmədova qarşı keçmiş iş yoldaşları tərəfindən dəfələrlə ağır ifadələr verilib. Ötən ilin noyabrında keçirilən məhkəmə prosesi zamanı “Bakı Telefon Rabitəsi” İstehsalat Birliyinin (BTRİB) sabiq baş direktoru Beytulla Hüseynov ifadəsində hazırda nazir müavini işləyən İltimas Məmmədova ev tikintisi üçün 1,5 milyon manat pul verdiyini demişdi. İltimas Məmmədov isə istintaqa ifadəsində ayda nazirdən 30 min manat “paket” aldığını etiraf etmişdi. İ.Məmmədov bildirmişdi ki, nazirliyin işçilərinə “paket” şəklində aylıq pullar verilməsindən məlumatlı idi. Belə ki, Vidadi Zeynalov tərəfindən onun özünə əvvəllər “paket” şəklində ayda 15 min manat, daha sonra qısa müddət ərzində 20 min manat, son bir ildə isə 30 min manat pul verilib. Lakin nazir müavini “həmin pulların konkret olaraq hansı mənbələrdən daxil olmasından məlumatı olmadığını” demişdi.


İltimas Məmmədov

*Bəs İltimas Məmmədov kimdir, bu qədər ağır ittihamlar və etiraflara rəğmən, onun hələ də nazir müavini postunda qalmasının kökündə nə dayanır?*

İltimas Əhməd oğlu Məmmədov hazırda da rabitə nazirinin müavinidir. O, 1963-cü il fevral ayının 10-da Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunun Yuxarı Əylis kəndində fəhlə ailəsində anadan olub. 1970-1980-cı illərdə həmin kənddə orta təhsil alıb. Orta məktəbi bitirdikdən sonra 1980-cı ildə Bakı şəhəri 23 nömrəli texniki-peşə məktəbinə daxil olub və 1981-ci ildə həmin məktəbi qırmızı diploma bitirib. 1981-1983-cü illərdə orduda həqiqi hərbi xidmətdə olub. İ.Məmmədov 1984-cü ildə Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutunun Elektrotexnika fakültəsinə daxil olub və 1989-cu ildə həmin fakültəni bitirərək, çoxkanallı elektrik rabitəsi mühəndisi ixtisasına yiyələnib.

Bir müddət sonra laboratoriyanın KRR qrupunda elektromexanik, 1990-cı ildə həmin qrupda mühəndis vəzifəsinə təyin olunub. 1991-ci ildə Bakı Kabel Qovşağında 2-ci dərəcəli mühəndis, 1992-ci ildə isə qovşağın xətt xidməti rəisi vəzifəsinə təyin olunub. 1996-cı ildə həmin qovşağın baş mühəndisi, 1997-ci ildə isə BTRİB-in baş mütəxəssisi vəzifəsinə təyin olunub.

2000-ci ildə Rabitə Nazirliyinin Telekommunikasiya şöbəsinin rəis müavini, 2001-ci ildə rabitə nazirinin texniki məsələlər üzrə müşaviri, 2005-ci ildə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Tənzimləmə şöbəsinin müdiri, 2005-ci il 22 dekabr tarixindən isə Prezidentin sərəncamına əsasən Rabitə və İnformasiya Texnologiyaları nazirinin birinci müavini təyin olunub. Əli Abbasovun vəzifədən çıxarılmasından sonra bir müddət nazir əvəzi işləyib. 2016-cı ilin noyabrın 25-də isə nazirin birinci müavini vəzifəsindən azad edilib nazirin müavini təyin edilib.

**ADP sədri Sərdar Cəlaloğlu**nun sözlərinə görə, normal cəmiyyətlərdə məhkəmədə verilən o ifadələrin biri kifayət edir ki, həmin adam və keçmiş nazir həbs olunsun: “Məhkəmədə verilən ifadələr, İltimas Məmmədovun özünün paket şəklində ayda 30 min manat aldığını etiraf etməsi onun haqqında cinayət işi açılması və məsuliyyətə cəlb olunması üçün hüquqi əsaslardır. Buna baxmayaraq hələ də İltimas Məmmədov məsuliyyətə cəlb olunmayıb və nazir müavini postundadır. Bu, onu sübut edir ki, əslində o məhkəmədə gedən keçmiş məmurlar korrupsiya cinayətlərinə görə yox, başqa siyasi yönlü xəyanət xarakterli əməllərinə görə həbs ediliblər. Çünki məntiq və qanun onu deyir ki, əgər bu adamlar korrupsiya əməllərinə yol verdikləri üçün həbs ediliblərsə, onlara rəhbərlik etmiş nazir və nazir müavinləri də həbs edilməlidirlər. Nəzərə alsaq ki, nazir müavininə qarşı keçmiş iş yoldaşları tərəfindən məlum ifadələr verilib, həmin şəxs mütləq cinayət məsuliyyətinə cəlb olunmalı idi. Korrupsiya ittihamı həbs edilən rabitə çetesinin siyasi sədaqətsizliyinə görə onlara irəli sürülən ittihamdır. Görünür İltimas Məmmədov siyasi sədaqətsizliyə yol vermədiyi üçün onu nəinki həbs etmirlər, hətta nazir müavini postunda qalır. Normal cəmiyyətlərdə məhkəmədə verilən o ifadələrin biri kifayət edir ki, həmin adam və keçmiş nazir həbs olunsun”.

**Partiya sədri qeyd etdi ki, həbs olunanlar və işdən çıxarılanlar şübhəsiz ki, korrupsiyaya bulaşmışdılar. Lakin əslində onlar müəyyən hakimiyyət məsələlərinə müdaxilə etdikləri, siyasi yönlü gizli fəaliyyətdə olduqları üçün həbs olunublar**: “Fərhad Əliyev də, Əli İnsanov da, Heydər Babayev də, Əli Abbasov da, Ziya Məmmədov da bunun qurbanı olublar. Korrupsiyaya görə olsaydı, onda gərək məmurların ən azı 90 faizi işdən çıxarılmalı və həbs olunmalı idi. Ona görə də korrupsiyanın kökü birdəfəlik kəsilmir”.

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017



# Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşması Azərbaycana nə vəd edir...

## Elçin Mirzəbəyli: "Türkiyə-Azərbaycan-Rusiya üçtərəfli formatı reallaşdırılmalıdır"

## Əhəd Məmmədli: "Türkiyə Rusiya ilə münasibətlərə görə Azərbaycandan vaz keçən deyil"

**Türkiyə ilə Rusiya arasında münasibətlər normallaşmağa başlayıb. Rəcəb Tayyib Ərdoğanla Vladimir Putinin Soçi görüşündən sonra iki dövlət arasında əlaqələr güclənir, problemlər aradan qalxır. Türkiyə-Rusiya münasibətlərinin yaxşılaşmasının Bakı üçün əhəmiyyəti barədə də maraqlı fikirlərə rast gəlinir.**

Əgər əvvəllər regionun əsas güc sahiblərinin yaxınlaşmasının Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Azərbaycan üçün əhəmiyyətinin yüksək olacağı deyilirdisə, əlaqələr davam etdikcə başqa fikirlər də səslənməyə başlayıb. Bəzi politoloqlar Rusiya-Türkiyə əlaqələrinin inkişafının Azərbaycanın Kreml, eləcə də qardaş ölkə üçün əhəmiyyətini azaltdığını düşünürlər. **Politoloq Elçin Mirzəbəyli** mövzu ilə bağlı danışarkən dedi ki, Türkiyə-Rusiya yaxınlaşması ortaq dəyərlərdən və ortaq strateji hədəflərdən deyil, mövcud geosiyasi reallıqlardan və məcburiyyətdən qaynaqlanan yaxınlaşmadır: "Bu baxımdan, münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə qədər inkişaf edəcəyi inandırıcı görünmür. Türkiyə-Rusiya yaxınlaşmasını Azərbaycan üçün ziyanlı hesab edənlər daha çox ötən əsrin əvvəllərində Xalq Cümhuriyyətinin süqutu və Azərbaycanın işğalı ilə nəticələnən prosesləri əsas götürərək belə mülahizələrlə çıxış edirlər. Bu narahatlığı başa düşmək olar. Lakin hələ dəqiq araşdırılmamış və təhlil edilməmiş tarixi prosesləri əsas götürüb qənaətə gəlmək doğru deyil. Türkiyə-Rusiya yaxınlaşmasının Azərbaycana ziyanı da ola bilər, xeyri də. Hər şey daha çox rəsmi Ankaranın mövqeyindən, davranışlarından asılıdır. Məsələnin mənəvi tərəfini bir kənara qoyuram. Azərbaycan geostrateji baxımdan hər 2 ölkə üçün mühüm əhəmiyyət kəsb edir. 1994-cü ildən etibarən həyata keçirilən enerji və nəqliyyat dəhlizlərinin diverfikasiyası, strategiyası ölkəmizin coğrafi mövqelərini geosiyasi və geoiqtisadi faktora çevirib. Kənar qüvvələrin arzu və istəklərindən asılı olmayaraq, Azərbaycan artıq Avrasiyanın çox önəmli və vazkeçilməsi mümkün olmayan zəncir həlqəsinə çevrilib. Azərbaycan olmadan istənilən Avrasiya modelinin gerçəkləşdirilməsi mümkün deyil. Enerji və nəqliyyat layihələri Türkiyə ilə Azərbaycanı bir-birinə elə bağlayıb ki, bu bağın qırılmasına cəhd göstərilməsi belə olduqca böyük problemlərə yol aça bilər. Türkiyə-Rusiya yaxınlaşmasının ziyanlı olmaması üçün biz hadisələrin mərkəzində yer almağa çalışmalıyıq. Bu yaxınlaşmada müşahidəçi statusu Azərbaycanı qətiyyən qane etmir. Türkiyə-Azərbaycan-Rusiya üçtərəfli formatı yenidən, həm də israrla gündəmə gətirilməli və reallaşdırılmalıdır. Ən azından indiki qeyri-müəyyən və proqnozlaşdırılması mümkün olmayan proseslərdən ziyansız çıxmağı bacarmalıyıq. Çünki indiki şəraitdə hətta Türkiyənin hədəfləri də bəlli deyil. Ankara-Moskva yaxınlaşması Yaxın Şərqdə baş verən proseslərdən, hər iki ölkənin siyasi liderlərinə Qərbin münasibətindən, Türkiyənin ənənəvi müttəfiqlərinin qeyri müəyyən davranışlarından qaynaqlanır".

**Politoloq indiki halda iki dövlət arasındakı əlaqələrin Azərbaycan üçün əhəmiyyət kəsb etmədiyini düşünür**: "Türkiyə-Rusiya yaxınlaşması Azərbaycan üçün o zaman əhəmiyyətli ola bilər ki, Ankara Azərbaycanın ərazi bütövlüyünün təmin olunması məsələsində Moskvanı razı sala bilsin. Çünki iqtisadi baxımdan bu iki ölkənin yaxınlaşması bizim üçün səmərəli deyil. Türkiyə Rusiya bazarında rəqibimizdir. Həmçinin Rusiyanın Türkiyə ilə birgə reallaşdırmaq istədiyi enerji layihələri də istər-istəməz rəqabətə yol açır. Bu yaxınlaşmanın bizim üçün müsbət tərəfi yalnız regionda sabitliyin qorunması və Dağlıq Qarabağ probleminin həlli ilə bağlı ola bilər. Bu halda isə başqa suallar ortaya çıxır: Dağlıq Qarabağ münaqişəsinin həlli Türkiyə üçün nə qədər prioritetdir? Ankara hansısa iqtisadi, yaxud maraqlarını Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına görə güzəştə gedə bilərmi? Eyni suallar Rusiya ilə bağlı da səsləndirilə bilər. Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Türkiyənin güclü olması və Moskvanın Ankara ilə hesablaşmaq məcburiyyətində qalması əsas şərtdir. Bizə və türk xalqına Suriyada Moskvanın dəstəyinə ehtiyacı olmayan, rus turistlərinin və Rusiyan bazarının ümidinə qalmayan, güclü, qətiyyətli Türkiyə lazımdır. Əks təqdirdə, Rusiya Dağlıq Qarabağ münaqişəsinin həllində indikindən daha ədalətli təşəbbüslərlə çıxış etməyəcək. Rus siyasətçiləri, politoloqları, KİV-ləri isə yenə də tutuquşu kimi "5 rayon" məsələsini təkrarlayacaqlar və bunun hətta Azərbaycan üçün göydəndüşmə bir təklif olduğunu ictimai rəyə sırıyacaqlar".

**"Sivilizasiyalar və konfliktlər" Analitik Mərkəzinin rəhbəri Əhəd Məmmədli** hesab edir ki, Azərbaycan Rusiya-Türkiyə əlaqələrinin indiki vəziyyətindən narahat olmamalıdır: "Belə fikirlər Qərbdən qrant alanların spekulyasiyalarından başqa bir şey deyil. Çünki ABŞ regionda Türkiyə ilə Rusiyanın yaxınlaşmasından çox narahatdır. Türkiyədən tələb edək ki, Rusiya ilə münasibətlər qurma ? Halbuki Azərbaycanın özünün Rusiya ilə yaxşı münasibətləri var. Biz ancaq o vaxt bunu Türkiyədən tələb edə bilərik ki, özümüz Rusiya ilə münasibətlərə xitam verək. Necə ki, Ermənistanla bizə görə Türkiyənin də əlaqələri yoxdur, ancaq o halda Rusiya mövzusunda da Türkiyədən eyni addımı tələb edə bilərik. Və bir də ən yüksək səviyyədə keçirilən müxtəlif görüşlərdə Türkiyə rəsmiləri dəfələrlə bildiriblər ki, Qarabağ, Krım və Suriya mövzusunda bir addımda olsa geri çəkilməyəcəyik. Və həmişə Qarabağ məsələsində Azərbaycanın yanında olduqlarını göstəriblər. Yəni Türkiyə Rusiya ilə münasibətlərə görə Azərbaycandan vaz keçən deyil. Əksini iddia etmək qərəz ya savadsızlıqdan başqa bir şey deyil. Qarabağ məsələsində istənilən halda Türkiyə Azərbaycanın yanındadır. Gerisi artıq Azərbaycana qalır".

❑ **Cavanşir ABBASLI**

# Uğurlu kişiyə mane olan zəhlətökən qadın



**Aysel Əlizadə**

**Hər uğurlu kişinin arxasında bir qadın dayanır, yoxsa daha uğurlu olardı.**

Bir dostum var. Həkimdi. Danışıb gülər, enerjili, ağıllıdı. Gülüşünün arxasında həmişə bir məyusluq hiss edərsən.

Sanki hardasa bir sakitlik tapacağına ümid edir.

Bir imperiyanı idarə edəcək gücdədi. Amma illərdi eyni yerdə ayaq döyür, uğursuz deyil. Sadəcə, əminəm ki, layiq olduğunu əldə etməyib.

İllər əvvəl bir gün dedi ki, bəyəndiyim qəzet-jurnal yazıları vardı, saxlayırdım. Yoldaşım hamısını atıb. Niyə atdığını soruşanda, "evi zir-zibillə doldurursan, nəyə lazımdı" dedi.

- Sən nə dedin?

- Heç nə, nə deyəydim...

Mənim üçün hər şey olan, onun üçün heç nədi. Mənim dəyər verdiyim yazılar onun üçün zir-zibildi. Heç nə deməmdim. Hər şey aydın deyil?

Möhkəm sarsıldım. Özümü onun yerində təsəvvür etdim. Ətim ürpəndi.

***

İnsanın şəxsi həyatındakı narahatlıq onun böyük amallar arxasınca getməsinə əngəl yaradır. Hər gün işdən evəsəni anlamayan birinin yanına getmək əzablıdı.

Anlamaması bir yana, səni gərəksiz, mənasız söhbətlərlə, aydınlaşdırmalarla yoran, tükəndirən, illərlə eyni sözləri deyən, eyni mövzuda danışan, kimliyini, ruhunu böyütməyən, heç nə ilə maraqlanmayan, heç bir hobbisi, məşğuliyyəti, əyləncəsi olmayan birini hər gün görmək, ona dözmək, onunla yaşamaq insandan nə boyda səbr istəyir. Dözmək, səbr etmək üçün də sonsuz enerji lazımdı. Hiss olunmadan mənasızlığa xərclənən, itirilən bu enerji an-an insanı tərk edir, boşaldır. Bir gün boşluqda qalırsan. Özünü belə hiss etmirsən.

Evə gedib güc almaq yerinə, evə gedəndə canını alırlar elə bil. İnsanı şəxsi həyatındakı neqativlər qədər heç nə tükəndirmir.

Necə güclü olmalısan ki, hər gün toparlanıb özünü bərpa edəsən və uğur arxasınca gedəsən.

Anlamayanlara nə anladacaqsan?

Əvvəllər düşünürdüm ki, insanlar danışaraq anlaşa bilər. Zaman, təcrübə göstərdi ki, danışmağa ehtiyac yaranırsa, dəfələrlə təkrarlanırsa, vəssalam, məsələ bitib. Heç nə çözülməyəcək - ümid yoxdu. Çünki bir-birini anlayan adamlar özlərini bir-birinə uzun-uzadı izah etməyə gərək duymayan tərəflərdi.

İnsanlar danışaraq anlaşırlar. Amma başqa mənada. Danışıb bir-birini tanıyıb dostlaşırlar. Bir-birinə uyurlar. Münasibət aydınlaşdırmağa dəfələrlə, illərlə, günlərlə ehtiyac yaranırsa, boş verin, özünüzü yıpratmayın. Sizin adamınız deyil. Ya barışın, ya ayrılın, amma döyüşməyin, özünüzü yormayın.

Əslində, bu mövzu hər kəsə aiddi. İşgüzar qadınlarına öz bayağılıqları ilə mane olan kişilər də var. Həmişə qadının problemini görmək isə ədalətsizlikdi. Ətrafda qadının bekar başından bunca əziyyət çəkən kişilər varkən, özünü görməzliyə vurmaq insafdan deyil.

O qədər mənasız, bayağı, bezdirici qadın görürəm, fikirləşirəm, kişi olsam, onunla bir saat bir yerdə yaşaya bilməzdim. Tanıdığım qadınlar var. On il öncə necə görmüşəmsə, o cür də qalıblar. Söhbətləri, dünyagörüşləri dəyişməyib. İntellektual səviyyə sıfır. Yeni heç nə öyrətməyib adam özünə. Dünyada heç bir marağı olmayan insanla yaşamaq zülmdü.

Bir kişinin əvəzsiz qadını olmaq istəyirsizsə, onun silahdaşına çevriləcəksiz, onun maraqlarını paylaşacaqsız. Özünüzə əziyyət verib onun sahəsi haqda öyrənəcəksiz.

Bir kişi sizinlə öz maraqları haqda danışa bilmirsə, ruhu yanınızda deyil. Bir kişini qazanmaq üçün onun ruhunu qazanmaq lazım.

Kişi yazarlarımızın maraqlı fikri var: Qadının ən gözəl yeri düşüncəsidi.

Əgər kişi üçün düşüncəniz gözəl deyilsə, nə özünüzə əl qatın, nə onun zəhləsini tökün. O, bütün varlığı ilə sizin deyil.

**Buna görə də "hər qüdrətli kişinin arxasında böyük qadın var" ingilis deyimini fərqli də ifadə etmək olar: Hər uğurlu kişinin önünü kəsən zəhlətökən və hikkəli qadın var... Yoxsa o kişi daha uğurlu olardı.**



# Nazirlikdə pul bölgüsü

Zamin HACI
zaminhaci@gmail.com

## "Yağış yağır, inanmıram, yarım gözləyər məni"

**(1992-93-cü illərin qeyri-sabitlik dövrünə aid mahnı)**

**AzərTAC dövlət informasiya agentliyi dünən hava haqqında xəbərə belə romantik başlıq qoymuşdu: "Yağ, ey yağış, uzaq, yaxın çöllərə yağ". Mikayıl Müşfiqin məşhur şeirindən sitat olsa da agentlik bunun müəllifini göstərməmişdi, bir növ dövlətimizin hava proqnozuna rəsmi münasibətini açıqlayırdı.**

Sözgəlişi, AzərTAC dünyada yeganə dövlət agentliyidir ki, izləyicilərə ulduz falı da təklif edir, özü də düz ikisini birdən! Birində sadə camaat şərq ulduz falına baxırlar, o birində isə iş adamları, pullu yoldaşlar Britaniya işgüzar ulduz falını izləyirlər. Həmin xəbərlərdə Qoç bürcündən olan xadiməni Bakıxanov yolunda qudurmuş pullu adamın burnufırtıqlı oğlu hansı maşınla vuracaq, sonra həmin uşağı neçəyə əfvə salmaq olur, Saturn planetinin halqalarının eşşək ətindən dönər yeməyə təsiri, Mərrix ulduzu Əqrəb bürcündən keçərkən ofşor hesab açmaq düzgündürmü - belənçik vacib şeylər öyrədilir.

Qayıdaq hava haqqında xəbərə. Başlıqdan göründüyü kimi, AzərTAC-ın və dövlətimizin mövqeyi belədir ki, yağış uzaq və yaxın çöllərə yağmalıdır. Paytaxtımıza, Dağlıq Qarabağa yağması isə məsləhət görülmür. Düzgün mövqedir. Bakıya yağsa bunun bizə nə xeyri var? Binəqədi və Sabunçuda camaatın evləri ötən payızdakı yağışlardan hələ qurumayıbdır. Bakıya qayıdan ermənilərin ölkəmizin uğurlarını görməsi baxımından da yağış zərərlidir. Hava aydın, səma buludsuz qalsa yaxşıdır.

Sadəcə, bu arada mən bir az başa düşmürəm ki, əgər ermənilər belə asanlıqla Bakıya qayıdırsa, dövlət rəhbərliyimiz multikulturalizm ilində buna şərait yaradırsa (təbii, çox yaxşı işdir, müzakirə eləmirik), bəs bizim camaatın işğal edilmiş ərazilərə qayıdışı haçan olacaqdır? Molla Nəsrəddinin sözü olmasın, dava elə yorğan davası idi? Bəs biz 27 ildir bir-birimizi nəyin üstündə qırırdıq? Bir el məsəlində deyilən kimi, qonaqlıq yaxşı şeydir ey, ancaq bir gün bizdə, bir gün sizdə.

Eyni zamanda, yağışın uzaq, yaxın çöllərə yağması üçün dövlət proqramı niyə olmasın? Nə qədər adamı işlə təmin edərik: buludqovan, yağıştökən, doluəridən, şimşəkçaxdıran, nə bilim, çətirtutan və sairə. İş yerlərinin rəngarəngliyi önəmlidir. Keçmiş Milli Təhlükəsizlik Nazirliyinin banditləri üzrə cinayət işinin məhkəməsində türmədə intihar eləmiş İlqar Əliyevin ifadəsi açıqlanıb. Əliyev MTN Antiterror Mərkəzinin (bəh-bəh, nə qəşəng adı varmış idarənin) rəis müavini olub. Və bu ifadə nazir Eldar Mahmudova qarşıdır. Ancaq bu qoy uca milləti düşündürsün, o cümlədən niyə bu ifadədən sonra Əliyev intihar edib, bunu da dərindən fikirləşmək olar. Bizi isə prosedur maraqlandırır. İlqar Əliyev ifadəsində deyir ki, bir iş adamını tutub idarəyə gətiriblər. Adamı qusana qədər çırpıblar, deyib 50 min dollar verirəm. Əliyev bunu öz rəisi general Elçin Quliyevə çatdırıb, o da nazir Eldar Mahmudova. Nazir deyib 50 azdır, 200 min versin. Sonra 150 minə razılaşıblar. Biznesmeni buraxıblar, gedib 120 min dollar gətirib. Bundan sonrasını qələm təsvir eləməkdə acizdir, gəlin özünüz ifadənin o yerini olduğu kimi oxuyun: "Elçin Quliyev Eldar Mahmudova bu barədə məruzə elədi. Nazir Elçin Quliyevə dedi ki, həmin puldan 70 mini köməkçisi Vüqar Mahmudova versin, qalan 50 mini isə baş idarə daxilində bölməsini tapşırdı. Elçin Quliyev də 70 mini Vüqar Mahmudova göndərdi, 20 mini özü götürdü, 10 min dollar mənə verdi. Qalan puldan 10 mini Azər Mehdiyev və Ramil Hümbətova verdi ki, aralarında bölünsün".

Elə bil Koroğlu dəliləri ilə Çənlibeldən enib hansısa karvanı basırmış. Hər kəsə nəsə çatıb. Necə də ədalətli dövlətdir... Guya Eldar müəllim istəsə o pulun hamısını özü götürə bilməzdi? Ancaq gözü, könlü tox adam olubdur. Neçə dənə yeni iş yaradıbdır, hər kəsin payını almasını istəyibdir.

**Bu cür nurlu, humanist, xeyirxah insanların ölkəsində yağış çöllərə də yağmağa borcludur, ellərə də, lazım gəlsə göllərə də.**

**Türkiyənin hakim partiyası özünün 3-cü qurultayına hazırlaşır. AK Partiyanın 21 may tarixində keçiriləcək qurultayında Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın yenidən partiyaya genəl başqan seçilməsi gözlənilir. "Yeni Müsavat"ın və müsavat.com saytının Ankaradakı müxbiri Türkiyə mediasının "Dönüş Qurultayı" adlandırdığı 3-cü qurultaya əsas məsul olan sima - AK Partinin təşkilatlanmadan sorumlu başqan müavini Mehmet Yüksektepe ilə görüşüb.**

# Ərdoğanın AKP-dəki sağ əli "Yeni Müsavat"a nələr danışdı...

## Türkiyədə hakim partiyanın başqan yardımçısı Mehmet Yüksektepe: "Partiyada və Nazirlər Kabinetində dəyişiklik olacaq"



Ona bütün Türkiyənin, hətta bir sıra dünya dövlətlərinin gözünü dikdiyi bu böyük siyasi hadisənin təşkilati işləri həvalə edilib. M.Yüksəktəpə ilə görüşə getmədən öncə Türkiyə mətbuatında barəsində çıxan son xəbərləri də oxumuşduq. Türk mediası onun barəsində "Mehmet Yüksektepe'ye Önemli Görev!", "Mehmet Yüksektepe, Erdoğan'ın Ak Parti'ye döneceği kongreyi idare edecek", - kimi başlıqlar altında xəbərlər yayıb.

Prezident Ərdoğanı AK Partiyaya döndərəcək qurultayın bütün hazırlıqlarına və idarə edilməsinə məsul olan bir şəxsin, gərgin iş atmosferinə rəğmən, "Yeni Müsavat" qəzetinin və musavat.com saytının təmsilçisi ilə söhbətə vaxt ayırması Azərbaycana olan sayğının nəticəsi idi. M.Yüksektepe söhbətə başlarkən, dedi:

- 16 aprel referendumu ilə birlikdə Türkiyədə yeni siyasi dönəm başlayıb. Bu, son 100 ilin ən mühüm siyasi hadisələrindən biri idi. Referendum nəticəsində cənab prezidentin hər hansı bir siyasi partiyanın üzvü olmasına qoyulan məhdudiyyət də aradan qalxmış oldu. Bu dəyişikliyi xalqımız da təsdiqlədi və nəticə etibarı ilə mayın 1-də partiyamızın Mərkəzi İdarə Heyətinin toplantısı keçirildi. Burada 3-cü növbədənkənar qurultayın keçirilməsi haqda qərar qəbul etdik. Bu çərçivədə eyni zamanda partiyamızın qurucu lideri, uzun müddət partiyaya rəhbərlik etmiş Rəcəb Tayyib Ərdoğanın mayın 2-də verilən qərarla yenidən partiyanın qurucu lideri və üzvü olaraq təsdiqlənməsi baş verdi. Bu hadisə partiyanın təşkilat şöbəsi olaraq bizim üçün xüsusi hadisə idi. Bu prosesdə çox ümidli və sevincliyik, inşallah bu sevincimizi mayın 21-də keçirilən qurultayda möhkəmləndirəcəyik.

Biz bu qurultayı bir demokratiya bayramına çevirəcəyik. Qurultayda 100 minə yaxın insanın iştirak edəcəyini gözləyirik. Artıq bununla bağlı planımızı hazırlamışıq və bu istiqamətdə fəaliyyətlərimizi qüsursuz şəkildə davam etdiririk. Partiya üzvlərimizi, tərəfdarlarımızı Ankaraya dəvət etmişik, 1500-ə yaxın avtobus hazırlanıb, Türkiyənin müxtəlif yerlərindən tərəfdarlarımızı, AK Partiya sevənləri Ankaraya gətirəcək. Bundan başqa ictimai təşkilatların nümayəndələri, Ankarada akkreditasiya olunmuş diplomatik nümayəndəliklərin təmsilçiləri, siyasi partiyalardan qonaqlarımız olacaq. Təxminən 150 nəfərlik qrupumuzla bütün bu təşkilati prosesləri, günbəgün, saatbasaat görüləcək işlərin qrafikini hazırlayaraq yerinə yetirməkdəyik.

## "Türkiyədə yeni siyasi dönəm başlayıb"



## "Biz bu qurultayı bir demokratiya bayramına çevirəcəyik"

Bu heyət daha əvvəl 2-ci növbədənkənar qurultayın hazırlığını uğurla həyata keçirib. Biz partiya olaraq mitinq, tədbir, toplantılar keçirməklə bağlı ciddi təcrübəyə malikik. İnşallah, cənab prezidentin yenidən partiyamızın başqanı seçiləcəyinə ümid etdiyimiz qurultayı da uğurla təşkil edəcəyimizə inanırıq.

**- Artıq xəbərlərdə də oxuduq, siz də qeyd elədiniz ki, hörmətli Rəcəb Tayyib Ərdoğanın yenidən AK Partiyanın sədri olması gözlənilir. Bu, ciddi və tarixi bir dəyişiklikdir. Bunun ardınca, partiya rəhbərliyində və hökumətdə başqa hansı dəyişikliklər gözlənilir?**

- Bu suallar mənim birbaşa sahəmə aid suallar deyil. Amma partiya rəhbərliyinə daxil olan biri kimi deyə bilərəm ki, hər qurultaydan sonra partiyamızın Mərkəzi İdarə Heyətinin və İdarə Heyətinin üzvləri dəyişir. Bunun nəticəsi olaraq eyni zamanda Nazirlər Kabinetində də dəyişikliklər olur. Bu, normal və təbii bir prosesdir. Ümid edirik, eyni zamanda cəmiyyətin də gözləntisi budur ki, cənab prezidentin partiyanın rəhbərliyinə dönüşündən sonra Mərkəzi İdarə Heyəti (MYK) da yenilənəcək. Çünki qurultayda Mərkəzi Qərar və Yönətim Qurumu (MKYK) üzvləri də yenidən seçilir, tərkib dəyişir. Eyni zamanda, sədrin birbaşa seçdiyi İdarə Heyətində də dəyişiklik olur. Çünki indiki sədr Binəli Yıldırımdır, yeni sədr isə Rəcəb Tayyib Ərdoğan olacaq. Yeni sədrin İdarə Heyəti də yenilənəcək. Yeni sədrin hansı heyətlə çalışacağına özü qərar verəcəkdir. Bu mənada, həm partiyada, həm də Nazirlər Kabinetində dəyişiklik gözlənilir.

**- Mətbuatda qurultaydan sonra yeni parlament seçkilərinin ola biləcəyi haqda iddialara rast gəlinir. Bunun bir əsası varmı?**

- Cənab prezidentimizin bu mövzuda açıqlaması oldu. Eləcə də bizim də təşkilat olaraq hesablamalarımız var. 16 aprel referendumunda 51.4 faiz səs aldıq və bu gün bizim qarşımızda dayanan əsas vəzifə səslərimizi necə artıra biləcəyimizdir. Vilayətlərdə, rayonlarda, bələdiyyələrdə, yerli təşkilatlarda, hökumətin fəaliyyətində hansı problemlərin olduğunu müəyyən edib, 2019-cu ilə qədər bu problemləri necə aradan qaldıra biləcəyimizin planını qurub, həyata keçirməliyik. 2019-cu ildə keçiriləcək həm bələdiyyə, həm parlament, həm də prezident seçkilərinə daha hazırlıqlı getməyə çalışacağıq. Bu mənada, 2019-cu ilə qədər bir ara seçkiləri planlaşdırmırıq.

**- 2014-cü ildən bu yana Türkiyə cəmiyyəti bir siyasi gərginlik içərisindədir. Siyasi proseslər, seçkilər ard-arda keçirildi. Hətta 2015-ci ildə iki seçki keçirdiniz, 2016-cı ildə qurultay və ardınca çevriliş cəhdi ilə cəmiyyətdə ciddi bir gərginlik atmosferi yaratdı. Sizcə, bu olaylar cəmiyyəti və siyasi partiyaları taqətdən salmır?**

- Bu sual üçün təşəkkür edirəm. Təbii ki, təşkilatlarımız baxımından bu bir yorucu fəaliyyətlərdir. Ancaq bizim təşkilatlar liderinə və partiyasına o qədər bağlıdır ki, nə zaman bir seçki və ya çağırış olarsa, həmən toparlanır. Partiya qurultayları, seçkilər, 15 iyuldakı çevriliş olayları və digər bu tipli vəziyyətlərdə verilən bir təlimatla insanlarımız hərəkətə keçir, toparlanır. Çünki biz bu gün haradasa 160 min aktiv üzvü olan, yalnız Türkiyədə deyil, dünyada ən aktiv və güclü sayılan ictimai-siyasi təşkilatıq. Yəni bu gün bir çağırış olarsa, küçələrə çıxmağa hazır olan yüzminlərlə tərəfdarlarımız və üzvlərimiz var. AK Partiya dinamik bir təşkilatdır. Bu da bizim təşkilatın quruluşu və təcrübəmizdən qayanqlanır. Bu prosesin əsas təşkilatçısı qurucu liderimiz, hazırkı prezidentimizdir.

**- Yəni 2019-cu ilə qədər cəmiyyət siyasi istirahət dönəmi yaşayacaq?**

- Bizdə dincəlmək yoxdur. Təşkilatlar dincəlməz. Təşkilat şöbələri siyasi partiyaların onurğasıdır. Onurğa isə daim canlı və hərəkətli olmalıdır. Bizim də işlərimiz dayanmır. Ramazan bayramından sonra - iyundan etibarən AK Partiyanın növbəti qurultayına hazırlıq məqsədilə təşkilat konfransları başlayacaq. Türkiyənin 81 vilayətində, 740 rayon təşkilatında konfranslar keçirəcəyik. İşimiz heç bitməz.

**- Birbaşa sizin sahəniz olmasa da, AK Partiya başqanının müavini olaraq, necə düşünürsünüz, qurultaydan sonra iqtidar partiyasının xarici siyasətində hansısa dəyişiklik olacaqmı?**

- Təşkilati işlərlə məşğul olan biri kimi bu sual birbaşa mənə aid olmasa da, partiya rəhbərliyinə daxil olan siyasətçi kimi bəzi məqamları deyə bilərəm. Cənab prezidentin apardığı Türk Dünyası və İslam aləmində könül dostlarımızın mənfəətlərini nəzərə alan xarici siyasət kursu davam etdiriləcək. Xüsusən də qardaş Azərbaycanla əlaqələrimizin ən yüksək səviyyədə davam etməsi, Rusiya, İran kimi qonşularla əlaqələrimizin düzəldilməsi istiqamətində fəaliyyətlər davam edəcək.

❑ **Kənan RÖVŞƏNOĞLU**
**Ankara**

# Türkiyə və Azərbaycan üçün kritik təhdid ayı - dəngə dəyişir

## Avqustda kürd dövlətinin elan olunması gözlənilir - təhlükəli gedişat; ABŞ və Rusiyanın məsələdə mövqeyi Ankara və Bakını da seçimlə üz-üzə qoya bilər, çünki...

**Türkiyə və Rusiya prezidentlərinin Soçi görüşündə bir maraqlı epizod da yaşanıb. Prezident Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı ilə görüşdə ona rus hərbçilərin kürd separatçı-terrorçularla (PKK-nın YPG-PYD qollarının silahlı təmsilçiləri ilə) çiyin-çiyinə çəkdirdikləri fotoları təqdim edib, öz adından narahatlıq ifadə edib.**



Putin isə həmkarına “araşdıracağıq” vədini verib və Türkiyəni arxayın edib ki, Ankarada rahatsızlıq yaradan bu qəbildən addımlar atılmayacaq. Ərdoğan onu da deyib ki, Rusiya lideri bölgədə kürd dövlətinin yaradılmasına yaxşı baxmır.

***

Lakin ekspertlərə görə, rus hərbçilərinin YPG və PYD-nin silahlı qanadı ilə əməkdaşlığı dayandıracağına zəmanət yoxdur, çünki Kreml bu iki qruplaşmanı bütünlüklə ABŞ-ın nəzarətində qalmasını istəmir. Hətta hazırda Amerika ilə Rusiya arasında bu məsələdə bir yarış, mübarizə gedir. Bütün bunlar isə əlbəttə ki, qardaş Türkiyənin milli maraqlarına ziddir.

Təsadüfi deyil ki, Ərdoğanın Soçi səfəri zamanı bu məsələ Suriya (Bəşər Əsəd) problemdən sonra ikinci ən mühüm mövzu kimi diqqət mərkəzində olub. Türkiyə liderinin gələn həftə - mayın 15-də ABŞ-a nəzərdə tutulan səfəri çərçivəsində isə bu məsələ Ərdoğan-Tramp görüşünün gündəliyində olacaq.

Söz düşmüşkən, Türkiyə Baş Qərargah rəisi Hulusi Akar, Milli Kəşfiyyat Təşkilatının rəhbəri Hakan Fidan və prezidentin mətbuat katibi İbrahim Qalın artıq ABŞ-a səfər ediblər. Onların Amerikaya getməkdə əsas məqsədinin prezidenti Rəcəb Tayyib Ərdoğanın Vaşinqtona səfərinə hazırlıq görmək olduğu bildirilir.

***

Bu arada İraq Kürd Muxtar Vilayətində (İKMV) müstəqilliklə bağlı keçiriləcək referendumun tarixi məlum olub. Səsvermənin avqust ayında olacağı deyilir. Axar.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında İKMV-nin başçısı Məsud Bərzaninin müşaviri Məhəmməd Hacı söyləyib.

Bərzaninin özü isə az öncə Fransa mətbuatına verdiyi müsahibədə Kürdüstanın müstəqil olacağını bildirmişdi. O, İraqdan sülhlə ayrılmaq istədiklərini, İraqın bütünlüyü üçün vuruşmaqdan yorulduqlarını, bu yolda on minlərlə kürdün həlak olduğunu da söyləmişdi.

Qeyd edək ki, Bərzani müstəqillik referendumu ilə bağlı əvvəllər də bənzər açıqlamalar verib. Lakin reallaşmayıb. Ona görə ki, bölgədə yeni kürd dövlətinin yaradılması əleyhdarları (Türkiyə, İran, bir çox ərəb dövlətləri) tərəfdarlardan (ABŞ, Avropa Birliyi, İsrail) qat-qat çoxdur. Bu da Bərzani administrasiyasını tərəddüddə saxlayır, onu məsələni heç olmasa, qonşu Türkiyə, İran və aparıcı ərəb dövlətləri ilə razılaşdırmaq zorunda qoyur.

Ancaq belə görünür ki, budəfəki referendum tarixi ciddidir. Kürdlər bu məsələdə ABŞ və müttəfiqlərinin xeyir-duasını almış kimi görünürlər. Xüsusən də Ankaranın nəinki Avropa və ABŞ-la, həm də deyəsən, Rusiya ilə PKK (PYD-YPG) məsələsində davam edən fikir ayrılığı Bərzani administrasiyasını ruhlandırıb.

***

Türkiyə ilə sərhəddə kürd dövlətinin yaradılması ideyası sözsüz ki, Qərbin (ABŞ-ın) yeni Yaxın Şərq layihəsinin tərkib hissəsi kimi görünür və heç şübhəsiz, həm də qardaş ölkəyə təzyiq eləmək, onu fakt qarşısında qoyub daha sözəbaxan vəziyyətinə gətirmək məramı güdür.

Bu məsələdə Rusiyanın hansı mövqe tutacağı da maraq kəsb edir. Hər necə olmasa, Moskva və Ankara arasında münasibətlər Avropa və ABŞ-dan fərqli olaraq yüksəliş dövrünü yaşayır. Söhbət xüsusilə də iqtisadi-ticari, energetika və hərbi əməkdaşlıq sahəsində son vaxtlar dərinləşən ikitərəfli əməkdaşlıqdan gedir.

Prezidentlərin Soçi görüşü bu əməkdaşlığa yeni bir impuls verib: kənd təsərrüfatı sahəsində “Su 24" insidentinə görə tətbiq edilmiş ikitərəfli məhdudiyyətlərin, demək olar, hamısı aradan qaldırılıb, turizm sektorunda bu il daha böyük canlanma yaradacaq qərarlar verilib, "Türk axını", Akkuyu AES-lə bağlı layihələrin reallaşmasını intensivləşdirmək üçün səylər artırılıb *(Bu il “Türk axını”, 2023-cü ildə isə Akkuyu AES-in ilk bloku işə düşəcək)*.

O da məlum olub ki, Türkiyə Rusiya dəyəri 500 milyon dollar olan S-400 zenit-raket kompleksləri üzrə anlaşmaya yaxındırlar. Yəni ümumilikdə on milyardlarla dollarlıq layihələr masa üzərindədir. Ümumilikdə isə iki dövlət arasında ticarət dövriyyəsinin həcmini qısa zamanda 100 milyard dollara çatdırmaq hədəflənib.

***

Sadalanan faktorlar, daha doğrusu, Rusiyanın götürə biləcəyi real və böyük iqtisadi gəlirlər fonunda Moskvanın Ankaranın iradəsi əleyhinə gedərək bölgədə kürd dövlətinə “dobro” verməsi inandırıcı görünmür. Üstəlik, belə bir “dobro” sözsüz ki, Türkiyənin dost-müttəfiqi Azərbaycanı da seçimlə üz-üz qoyardı. Bakının ABŞ-la yanaşı, Rusiya ilə də münasibətlərinə xələl gətirərdi. Nədən ki, qardaş Türkiyə harda, Azərbaycan da orda. Türkiyəyə dəyən zərbə Azərbaycana dəyən zərbədir.

Yəqin ki, Moskva da Vaşinqton kimi vəziyyətin həssaslığının fərqindədir və qərar verərkən bu amili də ciddiyə alacaq. Bir sözlə, həm region dövlətləri, həm də ABŞ və Rusiya üçün avqust kritik bir ay ola bilər. Bunu öncəliklə Türkiyə və Azərbaycana qarşı yeni təhdid saymaq lazım gəlir. Avqustda bölgədə dəngə dəyişə bilər...

❑ **Sİyasət şöbəsİ**

# Bakı ilə Vaşinqton anlaşıb, yoxsa... - Ekspertlərdən ilginc iddialar

## **Mehman Əliyev:** “Razılaşma var idi, aprelin ikinci yarısında təzyiq dalğası yenidən güclənməyə başlayıb”

## **Elçin Mirzəbəyli:** “Qərbin sanksiyalarının heç bir önəmi qalmayıb, ABŞ və Avropa artıq dünya üçün etalon deyil”



**Artıq Qərb öz təsisatlarının Bakıda qapadılan ofislərinin fəaliyyətini yenidən bərpa etmək iqtidarında olmadığını anlayıb. Hər halda ATƏT-in Bakı Ofisinin fəaliyyətinə razılıq almaqdan ötrü növbəti cəhdlərin uğursuzluqla nəticələnməsi belə qənaətə gəlməyə əsas verir. Ancaq təkcə bu deyil.**

Son illərdə ABŞ və Avropaya yaxın bir sıra qurumların Bakı ofisləri yer-yığış edib Azərbaycanı tərk etməyə vadar oldular. Bir sıra hallarda bu, Qərbin Azərbaycanın demokratikləşməsini prioritetlər sırasında saymamasının əlaməti kimi yozulsa da, daha çox inandırıcı görünən Azərbaycan hakimiyyətinin bu təşkilatların sabitliyə təhlükə yaratdıqlarını nəzərə alıb onlarla əməkdaşlığa son qoyduğu ehtimalı olub. Hesab olunur ki, postsovet məkanındakı bir sıra ölkələrdə rəngli inqilabların törədilməsi, qarışıqlığın yaradılması hakimiyyəti radikal addımlara sövq edib.

Cəmiyyəti təəccübləndirən budur ki, Azərbaycan hakimiyyəti ABŞ-a yaxın olan bütün təsisatları qapayır, hətta Konqresin media orqanının internet üzərindən də yayılmasını əngəlləyir, amma Vaşinqtondan ənənəvi reaksiya yoxdur. Bakı və Vaşinqton arasında hansısa anlaşmamı var, yoxsa ABŞ Azərbaycandakı proseslərə marağını dəyişib?

“ABŞ-ın Azərbaycanla bağlı susqunluğu 17 iyul 2016-cı ildən, yəni referendum elan olunan gündən başlayıb. O zaman birdən-birə bütün təzyiqlər dayandı, Azərbaycana qarşı tənqidlər səngidi, demək olar ki, heç olmadı. Hətta referenduma münasibətdə də hər şey kifayət qədər formal idi. Bu, onu göstərirdi ki, ortada razılaşma var və növbəti proseslər razılaşma əsasında baş verib”. **“Turan” İnformasiya Agentliyinin direktoru Mehman Əliyev** bu fikirləri “Yeni Müsavat”a açqlaması zamanı bildirdi.

**Onun sözlərinə görə, razılaşmalar öncə “Yol xəritəsi” ilə bağlı olub:** “Əslində biz indi görürük ki, bütövlükdə konstitusonal dəyişikliklər komandanın dəyişməsinə yönəlmiş bir prosesdir. Bilirik ki, paralel olaraq birinci vitse-prezidentin komandasının formalaşması prosesi gedir. Nəticə olaraq mənim fikrimcə, bu komanda köhnə komandanı əvəz edəcək. Əsas maraq da burdadır. Daha çox texnokrat kadrlar olacaq. Əlbəttə ki, bu, korrupsiyanın həcmini də azaldacaq, effektli işin görülməsini təmin edəcək. Bunun ardınca qeyri-neft sektorunun inkişafı və bu sahədə aparılacaq islahatlar məsələsi var”.

**ABŞ-ın Azərbaycanla bağlı siyasətinin necə olacağına gəlincə, M.Əliyev hesab edir ki, əksinə, aprelin ikinci yarısında təzyiq dalğası yenidən güclənməyə başlayıb:** “AŞ PA-da baş verən olaylar, Aqtramunt məsələsi, ”kürü diplomatiyası" ilə bağlı Azərbaycanı da adının hallandığı məhkəmə prosesinin başlanması buna misaldır. Bu, Azərbaycana təpkidir. Həmçinin Mehman Qələndərovla bağlı birinci dəfədir ki, Dövlət Departamenti açıq şəkildə məhkumun ölümünün araşdırılmasını, məhkumların buraxılmasını tələb etdi. Ona görə də mən düşünürəm ki, Azərbaycana təzyiqlərlə bağlı aktivlik başlayıb. Hakimiyyət referendumdan sonra söz vermişdi ki, islahatlara başlayacaq, yəni martın sonu, aprelin əvvəllərində. Ancaq bunu etmədi. Hələ ki islahatlara gedəcəklərindən danışırlar. Son vaxtlar Əli Əhmədov da administrativ islahatların hazırlandığı barədə fikirlər səsləndirdi. Hesab edirəm ki, bu mesajlar hakimiyyətin cavabıdır ki, “biz işləyirik, hazırlıq gedir və s.” Ancaq fakt budur ki, islahatlar mərhələsi başlamayıb, “Yol xəritəsi” ilə bağlı demək olar ki, ciddi bir iş görmürük. Ona görə də cavab olaraq qarşı tərəf yenidən təzyiq etməyə, xatırlatmağa başlayıb ki, əgər belə davam etsə, razılaşmalara uyğun şəkildə vədlər yerinə yetirilməsə, digər addımlar atıla bilər. Məndə olan məlumata görə, yenidən Maqnitski məsələsi gündəmə gəlir. Azərbaycanda siyasi proseslərdə fəallara qarşı zor işlədənlər, ədalətsiz qərarlar qəbul edənlər məsələsi gündəmdədir. Eyni zamanda saytların qapadılması ilə bağlı ilə bağlı sanksiyalar məsələsi ortaya çıxa bilər. Yəni hələ ki proseslər bütövlükdə gərginliyə doğru gedir".

**Politoloq Elçin Mirzəbəyli** isə hesab edir ki, hakimiyyət ABŞ-a yaxın olan təsisatları qapatmağı qarşısına məqsəd qoymayıb: “Rəsmi Bakı ölkə qanunvericiliyini əsas götürərək informasiya təhlükəsizliyini qoruyur və bu təhlükəsizliyə təhdid yaradan təsisatlara qarşı hüquqi müstəvidə müvafiq addımlar atır. Azərbaycanın mövcud qanunvericiliyi, o cümlədən Konstitusiyaya edilən dəyişikliklərə əsasən, təkmilləşdirilmiş sahə qanunları ”Azadlıq" radiosu kimi öz qanuni öhdəliklərinə əməl etməyən təsisatların ölkəmizdə yayımına imkan vermir. Vaşinqtonun reaksiyasına gəldikdə isə, o, nəyi əsas götürüb reaksiya göstərməlidir? Donald Tramp seçki kampaniyasından başlayaraq, ABŞ mətbuatını, xüsusilə də mərkəzi ABŞ-da olan transmilii KİV-ləri korrupsiyada, böhtançılıqda, qərəzli olmaqda ittiham edir. Hətta bizim demədiklərimizi belə Tramp deyir. ABŞ prezidentinin belə qərəzli saydığı ABŞ mətbuatına biz niyə qucaq açmalıyıq ki? Digər tərəfdən, dünya sürətlə dəyişir. İnformasiya və kommunikasiya sahəsində alternativlər çoxalır. İndi “Azadlıq” radiosu yoxdur, sosial şəbəkələr var. Radiolar, telekanallar və digər bu kimi artıq klassik sayılan vasitələr soyuq müharibə dövründə olduğu qədər ideoloji müharibə, yaxud informasiya savaşı üçün o qədər də əlverişli deyil. Azərbaycanda internet azaddır, internet və sosial şəbəkə istifadəçilərinin sayı gündən-günə artır. Bu baxımdan Azərbaycan qarşı neqativ mövqe sərgiləmək üçün heç bir əsas da yoxdur".

**M.Əliyevin dediklərindən fərqli olaraq E.Mirzəbəyli bildirdi ki, artıq Qərbin sanksiyalarının heç bir önəmi qalmayıb:** “Qərb öz dəyərlərini dəyərdən saldığı kimi, özü də dəyərdən düşüb. Nə ABŞ, nə də Avropa artıq dünya üçün etalon deyil. Trampın prioritetlərinin nə olduğunu deyə bilmərəm. Çünki bu prioritetlərin hərdən bir işartısı görünsə də, ardıcıl bir strategiyanın olmaması da nəzərə çarpır. Digər tərəfdən, respublikaçılar demokratlardan fərqli olaraq ABŞ-ın maraqlarını ön planda tuturlar”.

❑ **E.PAŞASOY**

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

**Qürbətdə yaşayan azərbaycanlılarla söhbət hər zaman ağrılı olur. Çoxlarına görə, onlar bizi "tərk etmiş", "xoşbəxtliyin qapılarını açmış" şəxslər sayılırlar. Bir çoxunun içində bəzən mühacirlərə qarşı gizli qıcıq da olur. Amma... ta ki, danışana qədər. Vətən həsrətini hamıdan dərin yaşayan onlardır. Ələkbər Məmmədov kimi. Azərbaycanın tanınmış hərbi eksperti, vaxtilə jurnalistlərin ən yaxın dostu, informasiya mənbəyi...**

# "Məni öldürmək üçün killer tutmuşdular..."

## Hərbi ekspert Ələkbər Məmmədov mühacirətdəki Amerika həyatından danışır





Bəli, o da artıq Amerikadadır. Kaliforniya Azərbaycan Mədəniyyət Evinin 36-cı ildönümü münasibətilə, San Joze şəhərində keçirilən tədbirdə qarşılaşdıq. Və başladı... Azərbaycandan Amerikaya uzanan hekayənin bir-birindən maraqlı cəhətləri.

***- Ələkbər bəy, yolu Amerikaya düşən hər bir azərbaycanlının bir hekayəsi var. Green Card, mühacirət, iş... Sizin hekayəniz nəyə söykənir? Necə oldu ki, yolunuz Amerikaya düşdü?***

- Biz bura siyasi mühacir kimi gəlmişik. Birləşmiş Millətlər Təşkilatının qaçqınlar idarəsi səviyyəsində, siyasi mühacir kimi mandatımız təsdiq olunub. Onlar bizi bura göndəriblər. Bizim oxucular 2013-cü ili xatırlayırlar. O illərdə sonuncu fəaliyyətim hüquq müdafiəçisi, hərbi ekspert kimi olmuşdu. Əsgər ölümləri yox, əsgərlərin hərbi xidməti zamanı naməlum bir şəkildə öldürülməsi məsələsi ortaya çıxmışdı. Onların valideynləri ilə ictimai araşdırmanı aparanda xoşagəlməz faktları üzə çıxardıq. Ölən əsgərlərin daxili orqanlarının tez bir zamanda "qara bazar"a çıxarılması, ölüxanaya çatdırılması, orqanlarının çıxarılması aşkarlandı. Bu, həm Azərbaycanda, həm də ölkə xaricində ciddi səs-küyə səbəb oldu. Buna qədər Azərbaycanın insan orqanlarını "qara bazar"da satan ölkə olaraq adını hallandırması məsələsi var idi. Məsələ də qalxanda üst-üstə düşmüşdü və böyük rezonans doğurdu.

***-Bu faktlar mətbuatda öz əksini tapdı. Hətta həmin ərəfələrdə "Əsgər ölümlərinə son" aksiyaları da şiddətlənmişdi. Doğru xatırlayıram?***

- Bəli, doğrudur. Aksiyalar da davamlı xarakter almışdı.

***-Bundan sonra nələr oldu?***

- Əsgər ölümləri məsələsini 2000-ci ildən qaldırıram. ANS-də də zamanında "Nəzər nöqtəsi" verilişində, eləcə də mətbuat konfranslarında bu mövzunu qaldırırdım. Amma son olaraq 2012-ci ilin avqustun 8-də mətbuat konfransı etdik. Həmin konfransda Kifayət İsgəndərli adlı valideyn bildirdi ki, oğlu hərbi xidmət zamanı naməlum şəkildə öldürülüb. O zaman həmin valideyn tərəfindən ölmüş əsgərin orqanlarının satışa çıxarılması məsələsi gündəmə gəldi. Avqust ayında artıq bu, böyük rezonansa gətirib çıxardı. Bir neçə valideyn müraciət etdi. Onların da başına eyni işin gətirildiyi məlum oldu. Dedilər ki, fiziki baxımdan tam sağlam olan uşaqları hərbi xidmətin sonlarına yaxın naməlum şəkildə ölüb. Bu, şübhə oyatdı. Mən tələb etdim ki, dövlət səviyyəsində bir komissiya bu məsələni araşdırmalıdır. Amma bunun əvəzinə təzyiqlər başlandı. Müdafiə Nazirliyi tərəfindən guya şər və böhtanla əlaqədar mülki işlər qaldırıldı. Ondan sonra orda adı hallanan Naxçıvanın hərbi prokuroru Yaşar tərəfindən bizi susdurmaq üçün killer tutuldu. Sonra məlumat aldım ki, məni həbs etmək istəyirlər. Mən həbsdən qorxmurdum. Killerin tutulması ilə bağlı xəbəri alan kimisə isə aidiyyəti orqanlara teleqramlar vurduq. Ölkə prezidenti və onun xanımına ünvanlanan teleqramlar oldu. Amma elə bir reaksiya verilmədi. Uşaqlarıma hücumlar oldu. Oğluma qarşı başlandı öncə. Amma uşaq universitetdə oxuyurdu deyə bir az ehtiyat elədim ki, sonradan ona qarşı hər hansı təzyiqlər olar. Sonradan qızıma qarşı oldu. Aprelin 28-də baş verdi. Ondan sonra qəti qərara gəldim ki, ölkədən gedim.

***- Bu təzyiqlər, xəbərdarlıqlar açıq mətnlə oldu?***

- Xeyr, dostlar xəbər verdilər.

***- Sizi nə gözləyirdi?***

- Həbs. Bu siyahıda hüquq müdafiəçiləri də vardı, ictimai xadimlər də. Əvvəl inanmadım. Düşündüm ki, jurnalistin həbsi bir cür səs-küy doğurur. Siyasətçinin, hüquq müdafiəçisinin həbsi isə başqa cür səs-küy doğurur. Ondan ötrü gərək prezidentin göstərişi olsun. O olmasa heç kimin hünəri çatmaz ki, hüquq müdafiəçisinə qarşı nəsə edilsin. Mənə bildirildi ki, artıq yüksək instansiyadan buna razılıq verilib. Hətta xəbəri belə verdilər ki, "sizin həbsinizə hazırlıq elə səviyyədə gedir ki, hətta mətbuat da bunu işıqlandırmayacaq. Sizi gözdən salma kampaniyası gedir". O dövrdə hüquq müdafiəçilərinə qarşı təzyiqlər olmuşdu. Amma hüquq müdafiəçisinin həbsi o qədər geniş

### "İndi Azərbaycana qayıtmaq istəsəm də, Amerika məni buraxmaz"

vüsət almamışdı. Əvvəl arxayın idim ki, hakimiyyət belə addım atmaz. Amma sonradan xəbərin bir neçə mənbədən gəldiyini görəndə düşündüm. Hər halda mən hərbçi, poqon daşıyan adam olmuşam. Hardasa tanışlar, dostlar var. Hörmətlə yanaşırdılar. Hamının

### "Qızımı yolda bıçaqla qorxutdular"

uşağı hərbi xidmət keçir və hamı da bilirdi ki, məsələ nə yerdədir. Bir mənbədən isə xəbər gəldi ki, hətta killer tutulub. Naxçıvanın hərbi prokuroru Yaşarın orda danışıq aparıb, killer tutması ilə bağlı xəbərlər yayılmışdı. Mən bununla bağlı mətbuat konfransı keçirdim, müvafiq müraciətlər etdim. Amma yenə heç bir reaksiya olmadı.

***- Burda hətta məhkəməniz də gedirdi.***

- Bəli. Məhkəmədə iştirak edən jurnalistlər də görürdülər ki, orda hakim mənə qarşı ittihamçı rolunda çıxış edir. Ora dəvət etdiyim şahidlər dindirilmirdi. İddianın müəllifi olan əsgər valideynlərinin dediklərini nəzərə almırdı. Mən deyirdim ki, komissiya təşkil olunsun. Amma bu tələblərin heç birinə əhəmiyyət verilmirdi. Ondan sonra təhlükədə olan bəzi dostlarla da görüşüb xəbərdarlıq etdim. Qərara gəldim ki, getmək lazımdır. Yanvarın 12-də gənclərin keçirdiyi izdihamlı aksiyada problemlərini qaldırdığım valideynlər də iştirak etmişdi. İkinci belə bir aksiyanın martın 10-da keçirilməsi planı vardı. O zaman məlumat aldım ki, o aksiyanı təşkil edən gəncləri və məni ya aksiyadan əvvəl, ya da sonra həbs etmək istəyirlər. Qızımla bağlı internet vasitəsilə, Daxili İşlər Nazirliyinə müraciət etdim, hadisəni təsvir etdim. Amma təhlükə get-gedə böyüyürdü. Mart ayının sonunda qərara gəldim ki, hazırlaşaq gedək.

***- Qızınıza qarşı təzyiqin detallarını deyə bilərsiz?***

- Qızıma küçədə basqın oldu. Bütün qonşular da, çevrəmiz də təxmin etdi ki, bu, mənimlə bağlıdır. Basqın edən şəxslər dedilər ki, atana de sussun, danışmasın. Qızım qışqırdı, qonşular da çıxdılar bayıra. Bıçaqla qorxutdular qızımı. Qonşuların çıxdığını görüb, həmin adamlar da qaçıblar. Qızım da birbaşa gəlib evə. Anasına tapşırmışdım ki, heç vaxt qapını bağlı saxlamasın. Uşaq gələn kimi qapının ağzında qalmasın. Elmar Hüseynovun qətlindən sonra - qapısının ağzında öldürüldüyü üçün gözüm qorxmuşdu. Elmarla da yaxın idim mən. Ona da xəbərdarlıq etmişdim ki, ehtiyatlı olsun, aradan götürüləcəyi ilə bağlı xəbərlər var.

***- Ölkədən çıxış hekayəniz də maraqlıdır. Azərbaycanlılar daha çox yaşamaq üçün Avropanı seçirlər. Sizin tərcihiniz fərqli oldu.***

- Məndə bu proses təbii alındı. Elə vəziyyət yarandı ki, mütləq Azərbaycandan çıxmaq lazım idi. Hara getmək isə məsələnin ikinci tərəfi idi. Azərbaycandan çıxanda sözsüz ki, hara gedəcəyimi bilmirdim. Qatarda olanda Azərbaycanla əlaqə saxlayırdım. O zaman mətbuat yazmışdı ki, "Ələkbər Məmmədov Avropadadır". Amma o vaxt mən Avropada deyildim. Rusiyaya gedə bilməzdim. Orda dəfələrlə kimlərinsə Azərbaycan tərəfinə qaytarılması məsələsi olmuşdu. Türkiyə də həmçinin. Yaxşı ki, ora getməmişəm. Jurnalist Rauf Mirqədirovu Türkiyə həbs etdi və Azərbaycana qaytardı. Həmçinin də Gürcüstan. Yeganə ölkə qalırdı - o da Ukrayna. Az-çox orda demokratik quruluş var idi. Ukrayna siyasi əlaqələr baxımdan MDB ölkələri ilə o qədər də sıx əlaqələrdə deyildi. Məqsədli olsaydı, mən də bir Avropa ölkəsi seçərdim. Elə alındı ki, Ukraynada BMT-in Qaçqınlar üzrə Komitəsinə müraciət etdik. Bu prosedurları biz etdik. Orda bizim siyasi mühacir mandatını təsdiq elədilər.

***- Orda nə qədər qaldız?***

- 3 il yarım.

***- Bəs onlar niyə sizi məhz Amerikaya göndərdilər?***

- Dedilər ki, Amerika ilə razılaşma var. Ziyalı ailələrin bu ölkəyə verilməsi ilə bağlı razılaşma var.

***- O zaman sizin Amerikaya gəlişiniz 2016-cı ilə təsadüf edir.***

- Bəli. 2016-cı ilin sentyabrında gəldik.

***-Heç bir iliniz tamam olmayıb. O zaman sizin bura öyrəşmə süreciniz davam edir.***

- Deyim ki, burada bizi açıq əllə, gül-çiçəklə heç kim gözləmirdi. Təbii ki, Azərbaycan hakimiyyəti "gedənlərin aqibətini görürsünüz də" desin istəmirəm. Amma demək istəyirəm ki, çox çətinliklərlə üzləşdik. Həm Ukrayna Miqrasiya Xidməti, həm də BMT-in Qaçqınlar İdarəsi ilə. Mandatımız təsdiq olunsa da, xeyli çətinliklər yaşadıq. Prosedurlar, bürokratik əngəllər var idi. Sonra Ukrayna hadisələri baş verdi və bu, bizim məsələni geri saldı. Sonra da BMT səviyyəsində bura göndərildik. Məsləhət belə olub. Burda da gələn ilk gündən bizi heç kim burda gözləmirdi, gül-çiçəklə qarşılamırdı. Bunların özlərinin bizim kimilərlə bağlı proqramları var idi. Mən deməzdim ki, o proqramlar yüksək səviyyədədir. Müəyyən çətinlikləri var.

***- Məsələn, hansı çətinliklər?***

- Amerika öncə o məsələni qoyur ki, təhlükəsizliyinizi qoruyuruq. Amma burda yerləşmək, 6 ay ərzində maddi tərəfdən yardım göstərilir. Bu yardım da nəzarət altındadır. Hara, nə cür xərcləmir. Tələb edir ki, sən mütləq işləməlisən. İşləyəndə yardım kəsilir. Bürokratiya ilə rastlaşdıq. Bunların ayrıca siyasi mühacirlərlə, qaçqınlarla bağlı proqramları yoxdur. Gələnlərə bu yardım aztəminatlı ailə olaraq edilir. İşi gərək özün tapasan. Burda bir təşkilat var. İRC dövlət orqanlarının miqrasiya xidməti ilə əməkdaşlığı var. Amma biz Ukraynada olanda bizi qarşılayacaq icma Azərbaycan icması olmadı. O, bir təşkilatdır, orda daha çox başqa xalqların nümayəndələridir - aşurlar. Məhz o təşkilatın gəlmələri yerləşdirmələri ilə bağlı yüksək səviyyədə işlərini görmədim. Nəinki mən, digər ölkələrdən gələnlər üçün də eyni münasibət göstərildi. Gələnlərə nəzərdə tutulmuş vəsaiti biz görmədik. Elə də böyük məbləğ deyil. Həmin məbləği bu təşkilat öz yaratdıqları ətrafda xərcləyir. Bizi öz ətraflarına məxsus motellərdə yerləşdirirdilər. Pul qurtarandan sonra bizi evlərə yerləşdirirdilər. O da onların yaxın ətrafına məxsus idi. Yeni bizə çatacaq vəsaitləri, bizim xərclərimiz üçün öz ətraflarına xeyir gəlməsi şərti ilə sərf edirdilər.

***- Hazırda işləmək imkanınız varmı?***

- İki qızım iş tapıblar. İş də belədir ki, iş olanda çağırırlar. Aşağı məbləğdə olan işlərdən söhbət gedir. Aztəminatlı olanda sosial xərclərin bir hissəsini dövlət öz üzərinə götürür. Dövlət tərəfindən mənzil alınması və sair imkanlar var. Amerikada az qala özlərinin evi yoxdur, hamısı kirayədir.

***-Hansısa müddətdən sonra Azərbaycana qayıtmağı düşünürsüzmü?***

- Mənim elə planım var. Günü bu gün Azərbaycana qayıdaram. Çünki Azərbaycana bağlıyıq çox. Ordan qıraqda yaşamaq çox çətindir. Həm yaşıma, həm ölkəmə bağlılığıma görə olduqca çətindir. Heç cür öyrəşə bilmirəm. Amma vətəndə əsl demokratik hakimiyyət olmasını istəyərdim. Siyasi fəaliyyət göstərən insanlara qarşı təzyiq göstərməsinlər, şərait yaratsınlar. Bu sahədə mən Azərbaycan mətbuatını izləyirəm. Mən gedəndən sonra ölkədə ictimai fəallıqla məşğul olan insanların başına nə iş açıldığını gördüm. Həbslər başlandı. Qaçan qaçıb canını qurtaran qurtardı. Böyük, tanınmış adamları həbs etdilər, incitdilər. Günü bu gün qayıdaram. Biz yaşda olan adamlar üçün vətən eşqi daha güclü olur. Ölkədən kənarda yaşamaq mənim üçün birinci hal deyil. Gənc yaşlarımda da mən Moskva kimi bir yerdə yaşamışam. Həmişə vətən çəkib. Hər il Bakıya qayıdırdım. O cür yerdə qala bilmədim. Həmin hissiyyat məndə indi də var. Burda cavanlar üçün istənilən şərait var. Fərqli şey odur ki, burda hər şey pulladır. Oxuyanlar üçün də dövlət kredit verir. Biz yaşda adamlar üçün nə qədər də şərait olsa, Vətən çəkir. Sizi gördüm, çox pis oldum. Bütün həyatım gözümün qabağından keçdi. Ölkədə də vəziyyət dəyişməlidir ki, qayıtmağa imkan yaransın. İndiki şərait ki, Azərbaycanda var, o davam etdiyi müddətcə mən istəsəm belə, Amerika məni buraxmaz. Çünki bu, təhlükəsizliklə bağlı məsələdir. Onlar mənim təhlükəsizliyimə təminat veriblər.

❑ **Sevinc TELMANQIZI**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017




# Qarabağa dair türk-rus anlaşması - Suriya presedenti təkrarlanacaqmı?

## Münaqişənin həllində köhnəlmiş Minsk Qrupu formatından imtina etməyin zamanı yetişib; erməni ekspert: “Vassal statusumuz bizi Türkiyə-Rusiya anlaşmasının qurbanı edə bilər...”

**Türkiyə və Rusiya prezidentləri arasında daha bir yüksək səviyyəli görüş baş tutdu. Soçidə keçirilən budəfəki təmas çərçivəsində iki ölkənin liderləri bir sıra məsələlərlə bağlı razılığa gəldilər. Bu görüşdən sonra Ankara-Moskva əlaqələri daha proqnoza yatımlı olmaqla bərabər, iki supergüc arasında qarşılıqlı etimad da artmış oldu.**




Doğrudur, Türkiyə və Rusiya arasında Suriya, PKK məsələləri ilə bağlı fikir ayrılıqları hələ qalır. Lakin qarşılıqlı etimad varsa və ortadadırsa, günün birində bu məsələlərdə də ortaq anlaşmanın tapılması mümkün hala gələ bilər. İndinin özündə də iki paytaxt arasında Suriya böhranı ilə bağlı hansısa ümumi yanaşma mövcuddur ki, bu da cəmi bir il əvvəl real görünmürdü. Suriyaya dair Astana prosesi buna sübutdur.

***

Deməli, iki ölkə prezidentinin siyasi iradəsi yetərli olarsa, bu maneə də aradan qalxa bilər. Bu da öz növbəsində Güney Qafqaz regionu üçün, məxsusən Dağlıq Qarabağ ixtilafının həlli üçün yaxşı bir presedent ola bilər - işğalçı erməni tərəfi belə perspektivi əsla arzulamasa da.

Bu xüsusda son günlər düşmən ölkənin ekspert dairələrində Türkiyə-Rusiya yaxınlaşmasının Dağlıq Qarabağ probleminin həlli prosesin nə dərəcədə təsir edə biləciyinə dair şərhlər də maraq doğurur. Gözlənildiyi kimi, qardaş ölkənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğanın Soçidə rusiyalı həmkarı Vladimir Putinlə görüşü həm də bu aspektdə düşmən tərəfi narahat edib.

**Musavat.com-un məlumatına görə, mövzu ilə bağlı 1 in.am nəşrinin analitiki Sərkis Arsruni yazıb:** “Rusiya-Türkiyə əməkdaşlığı Qarabağ konfliktinin də nizamlanmasında sınaqdan çıxarıla bilərmi? - Ələlxüsus da nəzərə alsaq ki, Cənubi Qafqaz əsrlər boyu bu iki dövlətin toqquşma meydanı və dəfələrlə ”qardaşcasına" bölünən bir “qənimət” olub. Rəsmi Bakı və onu müdafiə edən Ankara hətta rəsmi siyasətdə Dağlıq Qarabağa dair hazırkı nizamlama formatını dəyişdirmək istəyini gizlətmir. Bakı və Ankarada böyük ümid var ki, onların səyləri Kremldə gec-tez bəyənilməyə layiq görüləcək. Hər necə olmasa, ötən ilki 4 günlük aprel müharibəsi böyük hesabla həm də Kremlin Rusiya-Azərbaycan separat razılaşmanın reallaşmasına yönəlik siyasətinin nəticəsi idi".

**Erməni analitik daha sonra yazır:** “Bu əməkdaşlığın bərpası Bakının bugünkü siyasətinin oxuna çevrilib. Azərbaycan hakimiyyəti dərinləşən Rusiya-Türkiyə əməkdaşlığından məmnundur. Bir yandan ATƏT-in Minsk Qrupunun həmsədrliyi - Rusiya və Qərbin əməkdaşlıq edə biləcəyi yeganə beynəlxalq danışıq meydançasıdırsa, başqa yandan, onlar arasında fikir ayrılığı Qarabağ nizamlanması prosesində də əməkdaşlığı poza bilər. Türkiyə də elə bu vakuumu gözləyir ki, Cənubi Qafqazı, həmçinin də Dağlıq Qarabağ məsələsini Rusiya-Türkiyə anlaşmalarının hədəfinə çevirsin. Buna ABŞ-ın yeni administrasiyasının siyasəti və Avropa Birliyi daxilində yaşanan institusional böhran da kömək edir. Məsələ ondadır ki, tarixə təkrarlanmaq adəti xasdır. Üstəlik də Putin və Ərdoğan öz tarixlərinin imperiya səhifələrini bərpa eləməyə çalışırlar. Ermənistan hakimiyyəti, siyasi elita dərk eləməlidir ki, bu kimi mümkün təhdidlərə yalnız şaxələdirilnmiş, fəal və təşəbbüslü xarici siyasət hesabına duruş gətirmək mümkündür. Bugünkü erməni-rus münasibətlərinin vassal xarakteri ona gətirə bilər ki, biz növbəti dəfə Rusiya-Türkiyə "bal ayı"nın qurbanı ola bilərik".

***

Erməni şərhçinin təlaşı əslində əsaslıdır. Fakt budur ki, münaqişənin həllində Minsk Qrupu formatı artıq köhnəlib. Bu format 23 ildə konfliktin həllində real nəticəyə nail ola bilməyibsə, demək, bundan sonra da nəticə olmayacaq. Vaxt isə gedir və münaqişə zonasında böyük müharibə riski artır. Bu riski isə artıq Minsk Qrupu yox, getdikcə daha konstruktiv şəkil alan Türkiyə-Rusiya əməkdaşlığı daha effektli şəkildə önləyə, Qarabağ ixtilafının həllində dönüşə nail ola bilər.

Əslində bu, vassal Ermənistanın da xeyrinədir. Çünki Ermənistan adlı qondarma dövlət Kremlin zəmanətindən kənarda mövcud ola bilməz. Ermənistan adlı dövlətin müəllifi müstəsna olaraq Rusiyadır. Bunu erməni siyasətçiləri də yaxşı bilir. Yəni İrəvan Qarabağ məsələsində guya Moskvaya təhdid olaraq, Qərbə üz tutsa, o zaman nəinki Dağlıq Qarabağdan, həmçinin öz simvolik dövlətçiliyindən də əl çəkməli olacaq.

Odur ki, Rusiyanın Qarabağla bağlı istənilən həll modeli ilə satellit Ermənistanın razılaşmaqdan savayı yolu yoxdur. O işğalçı Ermənistan ki, bu gün onun Türkiyə və İranla xarici sərhədlərini Rusiya qoruyur və onun hava məkanı da, olan-qalan iqtisadiyyatı və maliyyə sferası da Rusiyanın nəzarətindədir, bütövlükdə varlığı sırf Rusiyadan asılıdır. Hələ Rusiyada çörəkpulu qazanan yüz minlərlə erməni əmək miqrantını demirik.

Yeri gəlmişkən, Kremlin ideoloqlarından olan politoloq Aleksandr Duqin erməni mediasına müsahibəsində bir neçə dəfə Ermənistanı xəbərdarlıq edərək deyib ki, əgər bu ölkə Rusiyaya xəyanət edib Qərbə üz tutsa, dövlət kimi yox olacaq. Zatən, onsuz da belə bir dövlət yox kimidir, Rusiyanın ucqar vilayəti qismindədir.

*Bununla belə, hələ ki xaricdən ciddi təzyiqlər görməyən işğalçı Ermənistan Qarabağ məsələsində barışmaz mövqe tutmaqda davam edir. Ancaq hara kimi?*

“Ermənistan tərəfi özünü yenə də konstruktiv apara bilmir, vaxtı uzatmağa, status-kvonu saxlamağa var qüvvəsilə cəhd göstərir. Mənim təəssüratım, məndə olan məlumat budur”. Bunu Azərbaycan Prezident Administrasiyası (PA) rəhbərinin müavini, Xarici əlaqələr şöbəsinin sədri Novruz Məmmədov jurnalistlərə deyib.

PA rəsmisi qeyd edib ki, baxmayaraq ki, Azərbaycan və Rusiya tərəfindən müəyyən təzyiqlər göztərilir, amma Ermənistan hələ ki öz mövqeyini dəyişmək istəmir. “Bu da görünür ki, Ermənistan rəhbərliyinin, Sarkisyanın, Nalbandiyanın maraqlarına uyğun gəlir. Onlar hələ də başa düşə bilmirlər ki, tamamilə səhv yoldadırlar və bu yol onları hara aparıb çıxarır? Bu haqda düşünməklərinin artıq vaxtı gəlib çatıb”, - deyə PA rəsmisi qeyd edib.

**Gerçəkdən də vaxt yetişib ki, erməni tərəfi öz seçimini eləsin: işğalçı Dağlıq Qarabağ ixtilafının sülh yolu ilə həllinin tərəfdarıdır, yoxsa Ermənistanın olan-qalan dövlətçiliyinə də son qoyacaq böyük müharibənin?**



## “Qarabağ problemi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllini tapacaq” - rusiyalı deputat

**“Rusiya Dağlıq-Qarabağ münaqişəsinin həll edilməsi üçün əlindən gələni edir”. Bunu “Trend”ə Rusiya Dövlət Dumasının deputatı, Rusiya-Azərbaycan Parlamentlərarası dostluq qrupunun rəhbəri Dmitriy Solovyov deyib.**

Deputat qeyd edib ki, Rusiya ilk vaxtdan özünü danışıqlarda vasitəçi kimi təklif edib və keçən müddət ərzində öz mövqeyindən kənara çəkilməyib. Rusiyalı deputat deyib: “Bizim vasitəçiliyimiz ilə danışıqlar gedir, məsləhətləşmələr aparılır. Çox böyük iş görülüb. Mən əminəm ki, münaqişə beynəlxalq hüquq və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllini tapacaq”.

Rusiyalı deputatın sözlərinə görə, münaqişənin nizamlanması üzrə danışıqlar prosesi ATƏT-in Minsk qrupu çərçivəsində davam etdirilməlidir. Onun qənaətincə Minsk Qrupu fəal işləyir, müzakirələr gedir. **“Bütün ölkələr, ilk növbədə Rusiya danışıqlar üçün əlverişli şərait yaradır. Əminəm ki, bütün bunlar öz bəhrəsini verəcək və münaqişə həll olunacaq”**, - deyə o əlavə edb.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi

# “Cahangir Hacıyevin adı 1 milyon manat müqabilində siyasi məhbus siyahısına salınıb” - ilginc iddia

**Keçmiş siyasi məhbus Fuad Hüseynov:** “Bir hüquq müdafiəçisinə Cahangir Hacıyevin yaxınları tərəfindən həmin məbləğ təklif olunub”
**Mirvari Qəhrəmanlı:** “Necə demək olar ki, Cahangir Hacıyev siyasi məhbusdur?”

**Azərbaycanda siyasi məhbuslarla bağlı hazırlanan siyahılar daim qalmaqal yaradıb. Xüsusilə, son illərdə bu siyahılara bəzi korrupsioner şəxslərin adlarının salınması ciddi qalmaqallara səbəb olub. Vaxtı ilə hakimiyyətdə təmsil olunmuş və sonradan müəyyən səbəblərdən həbs edilən məmurların bəzilərinin adlarının bu siyahılara salınması birmənalı qarşılanmır.**

90-cı illərin ortalarından başlayaraq, bu cür problemlər yaşanıb. Xüsusilə, ən çox hazırda Hollandiyada yaşayan Sülh və Demokratiya İnstitutunun rəhbəri Leyla Yunusun hazırladığı siyahılarla bağlı belə qalmaqallara rast gəlinib. Onun 1994-cü ildə Bakıda “20 Yanvar”, “28 may” və “Gənclik” metro stansiyalarında törətdikləri terror hadisələri ilə 30 nəfərin ölümünə, 100-dən çox insanın isə yaralanmasına səbəb olan separatçı “sadval”çıların adlarını siyasi məhbus siyahısına salıb, onları can-başla müdafiə etməsi yaddaşlardan silinməyib.

Sonrakı illərdə ömürlük cəza alan Surət Hüseynov, Rəhim Qazıyev, Əlikram Hümbətov kimi şəxslərin adlarının siyasi motivlərlə həbs edilmiş insanlarla birlikdə siyasi məhbus siyahılarına daxil edilməsi uzun müddət narazılıq yaradıb. Bu hal onların 2005-ci ildə həbsdən azad olunmalarına qədər davam edib.

2005-ci ildən başlayaraq indiki hakimiyyətdə təmsil olunan və sonradan həbs edilən şəxslər həbs olunmağa başlayanda yenə də L.Yunusun başda olmaqla, bir sıra hüquq müdafiəçiləri həmin şəxsləri siyasi məhbus elan etdilər. Sabiq nazirlər Əli İnsanov, Fərhad Əliyev, həmin prosesdə həbs olunan Akif Muradverdiyev və Rafiq Əliyev və digərləri də siyasi məhbus elan olunublar.

Son olaraq da Beynəlxalq Bankın idarə heyətinin sabiq sədri Cahangir Hacıyevin adının siyasi məhbus siyahısına salınması bu məsələni bir daha gündəm edib.

*Siyasi məhbus siyahıları hazırlayan bəzi qruplar üçün sabiq iqtidar məmurlarını vazkeçilməz edən səbəblər nədir?*

İddia olunur ki, həmin şəxslərin kifayət qədər maliyyə mənbələrinə malik olmaları adlarının siyasi məhbuslarla bir yerdə çəkilmələrinə səbəb olur. Bir növ yüksək məbləğlər qarşılığında keçmiş iqtidar yetkililərinin müxalifyönlü şəxslərin siyahılarına yol tapdıqlarına dair ittihamlar ortadadır.

C.Hacıyevin siyahıya salınması ilə bağlı bir vaxtlar siyasi məhbus taleyi yaşayan hüquq müdafiəçisi Fuad Hüseynov facebook səhifəsində paylaşdığı statusda ilginc açıqlama verib. **O yazıb:** “Bu yaxınlarda məclislərin birində söhbət oldu ki, filan hüquq müdafiəçisinə Cahangir Hacıyevin yaxınları tərəfindən bir milyon manat pul təklif olunub ki, onun adını da siyasi məhbusların siyahısına əlavə etsin. Həmin hüquq müdafiəçisi razı olub və məsələnin həll edilməsi üçün çalışırmış. Bu söhbəti həmin məclisdə Oktay İsgəndərli etdi. Bəşir Süleymanlı sadəcə


Cahangir Hacıyev

bu barədə eşitdiyini bildirdi və Cahangir Hacıyevin adının siyasi məhbuslar siyahısına salınmasının əleyhinə olduğunu vurğuladı. Həmin məclisdə olanlardan bir nəfər *(kimliyini müəyyən etmişik)* bu söhbəti hüquq mühafizə orqanlarına çatdırdı deyə məclisdə iştirak edənlərin bir neçəsini sorğu-sual etdilər. Cahangir Hacıyevin adının siyası məhbuslar siyahısına salınması konkret olaraq düzgün iş deyil”.

**İnsan Haqları üzrə Birgə İşçi Qrupunun üzvü Mirvari Qəhrəmanlı** qalmaqala səbəb olan siyahılarla bağlı dedi: “Sadval”çıların adları ona görə salınmışdı ki, onların cinayətləri sübuta yetirilsin. Biz insan haqlarını müdafiə edən təşkilatlarıq. Zamanında elə məmurlar olub ki, QHT-ləri hazırladıqları o siyahılara görə tənqid ediblər. Həmin məmurların da adları korrupsiyada hallanırdı. Hətta jurnalistlər var idi ki, açıq şəkildə olmasa da, onları cinayət törətməkdə suçlayırdılar. Amma indi baxırsan ki, o şəxslərin çoxlarının adları siyasi məhbus siyahılarındadır. Biz özümüz məhkəmə sistemini, polisləri, başqa sahələrin təmsilçilərini demək olar, hər gün tənqid edirik. Amma əminliklə deyirəm ki, əgər bu gün tənqid etdiyimiz həmin məmurlar sabah həbs edilsələr, onların da adlarını siyasi məhbus siyahılarında görəcəyik. Çox üzücü mənzərə yaranıb. Burada bəzi saytların günahı ondan ibarətdir ki, bu işlərlə əlaqəsi olmayan şəxsləri məşhur hüquq müdafiəçiləri kimi qələmə verirlər. Yaxud hansısa bir saytda bir məqalə yazmayan birisini məşhur jurnalist adlandırırlar. Siyasi məhbuslarla məşğul olan hüquq müdafiəçiləri başqa, sonradan bir siyahı tərtib edib, altında hüquq müdafiəçisi kimi imza qoyanlar tam başqadırlar. Bir insan əgər siyasi məhbus elan olunursa, hərtərəfli araşdırılıb, sonra bu qənaətə gəlinməlidir. Cahangir Hacıyevin işinin monitorinqinin aparıldığını deyirlər, o zaman monitorinq aparıldığı müddətdə həmin şəxsin adı siyahıya salına bilməz. Siyahı dəqiq olmalı, beynəlxalq təşkilatların kriteriyaları əsas götürülməlidir. Məhkəmələr tam qurtardıqdan sonra rəy verilməlidir. Adı korrupsiyaya bulaşmış şəxsləri siyasi məhbus elan edib, onlara vəkil tutmaq, ailələrinə kömək etmək, amma doğru siyasi məhbus olanları isə diqqətdən kənarda qoymaq yaxşı hal deyil. Cahangir Hacıyevin barəsində zamanında Beynəlxalq Bankla əlaqədar çoxsaylı tənqidi yazılar yazılıb, şikayətlər saysız-hesabsız idi. Amma indi açıq şəkildə ortaya faktlar qoyulub, bunların müqabilində necə demək olar ki, Cahangir Hacıyev siyasi məhbusdur?"

❑ **Cavanşir ABBASLI**

# Beynəlxalq təşkilatlara Azərbaycanda inam sarsılıb

## Bir vaxtlar bəyanatı zəlzələ effekti verən beynəlxalq təşkilatlar əhəmiyyətsizləşib, yoxsa?..

**Uzun illər ATƏT, Avropa Şurası, Avropa Parlamenti kimi beynəlxalq təşkilatlarının Azərbaycanda demokratiya, insan haqları ilə bağlı verdiyi bəyanatlar zəlzələ effekti verirdi-hakimiyyət düşərgəsində narahatlıq və etirazlar, müxalifətdə isə sevinc müşahidə edilirdi. Xüsusilə hakimiyyət düşərgəsində təlaşa səbəb olurdu bu tip bəyanatlar, qətnamələr. Son zamanlar adıçəkilən beynəlxalq qurumların həm səsi eşidilmir, həm də sanki əhəmiyyəti azalıb, hərdən onlardan gələn hər hansı bəyanat və ya açıqlama isə əvvəlki əks-sədaya səbəb olmur. Bu isə suallar yaradır. Hakimiyyət güclənib, yoxsa bu beynəlxalq təşkilatlar zəifləyib, onlara inam qalmayıb, yoxsa başqa səbəblər var?**

**Beynəlxalq məsələlər üzrə ekspert Elşən Mustafayev** bildirdi ki, beynəlxalq təşkilatların xüsusilə Avropa İttifaqının, Avropa Parlamentinin, Avropa Şurasının, ATƏT-in verdiyi bəyanatlar onların ədalətli və ya ədalətsiz olmasından asılı olmayaraq son dərəcə ciddi hadisələrdir. Onların Rusiya ilə, son günlər isə Türkiyə ilə bağlı verdiyi qərarlara həmin ölkələr tərəfindən olan reaksiyalardan da görünür ki, bu qurumların əhəmiyyəti və gücü heç də azalmayıb. Əksinə, dünyada baş verən geosiyasi çalxalanmalar fonunda onların fəaliyyəti daha təsirli effektə malik ola bilər: “Doğrudan da illər öncə bu təşkilatlar tərəfindən verilən müxtəlif bəyanatlara, açıqlamalarda olan iradlara hakimiyyət tərəfindən olan reaksiyalar daha çox deyilənlərin bir hissəsini qəbul edib, onlarla qismən razılaşma, digər hissəsini inkar etmə üslubunda idi. Hazırda isə belə bəyanatlara ən yaxşı halda saymazlıq nümayiş elətdirilməklə əhəmiyyət verilmir. Mən bunu hakimiyyətin güclənməsi və ya beynəlxalq təşkilatların isə zəifləməsi kimi dəyərləndirmirəm. Bunu hakimiyyət daxilində Rusiyameylli qüvvələrin son vaxtlar ciddi revanş götürmələri kimi dəyərləndirirəm. Hakimiyyət daxilində Avropa ilə əməkdaşlığın daha da inkişaf elətdirilməsini istəyən qüvvələrin isə buna qarşı müqavimətinin zəif olmasını müşahidə edirəm. Ölkə başçısının bir başa tapşırığı ilə Avropa İttifaqı ilə yeni saziş müqaviləsinin layihəsinin müzakirəsi gedir. Bu saziş layihəsi siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər sahələrdə əməkdaşlıq istiqamətlərində əməkdaşlığı nəzərdə tutur. Adı çəkilən beynəlxalq təşkilatlar da Avropa İttifaqının qurumlarıdır”.


Yeganə Hacıyeva

**Siyasi ekspert Yeganə Hacıyeva** isə bildirdi ki, müasir dünya düzənində dəyişmiş məqamlar var və mövcud beynəlxalq təşkilatların əksəriyyətinin əhəmiyyətinin azalması tendensiyasının şahidi oluruq. Adları çəkilən beynəlxalq təşkilatlar və onların beynəlxalq münasibətlərdəki yeri və rolu 10 il öncəki kimi deyil, onların özlərinin də yürütdükləri siyasətləri və yanaşmaları fərqlidir: “İndi onların ümumilikdə az dinlənilən, qərar və bəyanatlarının əhəmiyyətinin çox zaman suallar doğurduğu zamanlardır. Bunun bir neçə səbəbləri var. Əsas səbəbi əlbəttə qurumlara ümumilikdə güvənin zədələnməsidir. Etiraf edək ki, zaman-zaman demokratiya, insan haqları kimi mövzular beynəlxalq siyasətdə alver mövzusu, təzyiq vasitəsi kimi istifadə edilib. Bu təşkilatlar sanki bir neçə dövlətin öz xarici siyasətlərini beynəlxalq müstəvidə daha rahat həyata keçirməsinə xidmət edir, zaman-zaman siyasi və iqtisadi lobbi qruplarının əlində vasitə olur, proseslərə yanaşmalarda ikili standartları tətbiq edir, beynəlxalq siyasətdə və münasibətlərdə "polis" rolunu oynayır. Bəzən isə bu təşkilatların fəaliyyəti mövcud olduqları regionun ümumi siyasətinə, təhlükəsizliyinə və beynəlxalq münasibətdəki mövcud siyasətə zidd gəlir. Buna misal olaraq, biz Avropa qurumları ilə Türkiyə münasibətlərini göstərə bilərik. AB, AP və AŞPA-nın son illərdəki Türkiyə siyasəti birinci növbədə məhz Avropanın özünün təhlükəsizliyi və Avropa Birliyinin gələcəyi baxımından yanlışdır”.

❑ **E.SEYİDAĞA**

# Cahangir Hacıyev növbəti dəfə hakim qarşısında



**Sabiq bankir Cahangir Hacıyev və onunla birlikdə həbs edilən şəxslərin barələrindəki hökmdən verdikləri apelyasiya şikayətinə baxılıb. Bakı Apellyasiya Məhkəməsində hakim Əflatun Qasımovun sədrliyi ilə keçirilən prosesdə Cahangir Hacıyevin vəkilləri 12 vəsatətlə çıxış ediblər.**

Ancaq hakim bildirib ki, məhkəməyə təqdim edilən vəsatətlər müvafiq sənədlərin alınması, əlavə şahidlərin dindirilməsi və başqa məsələlərlə bağlıdır. Bu məsələlər də məhkəmə istintaqında həll olunası məsələlərdir: “Biz isə apelyasiya şikayətlərinə məhkəmə istintaqı aparılmadan baxılmasına qərar vermişik. Ali Məhkəmə də bu qərarı qüvvədə saxlayıb. Buna görə də vəsatətlərin heç biri təmin olunmur”.

Sonra hakim çıxış üçün təsdirləndirilən şəxslərin vəkillərinə söz verib.

Təqsirləndirilən şəxslərdən Azad Cavadovun vəkili bildirib ki, müdafiə etdiyi şəxsə qarşı ittihamları qəbul etmir.

Vəkil Azad Cavadova verilmiş qanunsuz silah saxlama ittihamına münasibət bildirərkən deyib ki, həmin silahın müvəkkilinə aidiyyatı yoxdur.

Prosesdə Cahangir Hacıyevin vəkili Fəxrəddin Mehdiyev də çıxış edib.

Vəsatətlərin heç birinin təmin olunmamasından təəssüfləndiyini deyən vəkil bildirib ki, C.Hacıyevə qarşı ittihamları sübut edən heç bir dəlil yoxdur.

Cahangir Hacıyevin digər vəkili Aqil Layıcov da vəsatətlərin heç birinin təmin olunmamasına narazılığını bildirib. Hakim vəkil A. Layıcovun çıxışını yarımçıq dayandırıb.

Digər vəkillərə çıxış üçün söz verilsə də, onlar məhkəmədən vaxt istəyiblər.

Növbəti məhkəmə prosesi mayın 11-nə təyin edilib.

**Xatırladaq ki, C.Hacıyev 15 il, Azad Cavadov 10 il 11 ay, bankın Mərkəzi filialın direktoru işləmiş Yusif Ələkbərov 7 il 6 ay, “İnter Security” MMC-nin direktoru işləmiş İbrahim Hüseynov 6 il 5 ay müddətinə azadlıqdan məhrum ediliblər.**

❑ **İ.MURADOV**

# Neftin ucuzlaşmasının arxasında Amerika dayanır...

## İlham Şaban: "Əgər bazarda vəziyyət dəyişməsə neftin ucuzlaşması davam edəcək"

**Neftin qiyməti bir neçə aydır 55 dollar ətrafında sabitləşsə də, yenidən sürətlə ucuzlaşmağa başlayıb. Birjalarda gələn son məlumatlara görə, Brent nefti kəskin ucuzlaşıb. Mayın 4-də Bakı vaxtı ilə saat 21:30-a Brent nefti 4,8% ucuzlaşma ilə 48,47 dollardan, ABŞ xam nefti isə 5% ucuzlaşma ilə 45,57 dollardan alıcı tapıb.**

Qeyd edək ki, neft ABŞ-da hasilatın artması ilə əlaqədar olaraq ucuzlaşır. ABŞ-da artmaqda olan istehsal, OPEK ölkələri və digər bəzi istehsalçıların hasilatı azaltmalarının təsirlərini heçə endirir. Qeyd edək ki, Brent nefti bu ilin birinci rübündə 57 dollaradək bahalaşmışdı. Həmin qiymət ilə müqayisədə artıq neft təxminən 16% ucuzlaşıb.

Neftin bu cür kəskin ucuzlaşması iqtisadiyyatı neftdən asılı olan ölkələrdə, o cümlədən Azərbaycanda narahatlıqla izlənilir. Dünya bazarında neftin 55-56 dollar civarında satıldığı dövrdə Azərbaycanda manatın sabitliyi müəyyən qədər bərpa olunmuşdusa, hazırkı tendensiya neqativ proqnozlar üzərində köklənib.

Dünya birjalarında yaşanan təlatümləri dəyərləndirən **Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban** neftin ucuzlaşmasının səbəbi ABŞ-ın neft ehtiyatları ilə bağlı bu ölkənin enerji administrasiyasının açıqladığı həftəlik hesabatdır: "Bu hesabatdan öncə ekspertlər ABŞ-da neft ehtiyatlarının azalmasını gözləyirdilər. Bunun nəticəsində neftin qiyməti qalxacaq. 2,3 milyon neft ehtiyatlarının azalmasını gözləyirdilər. Ancaq mayın 3-də bəlli oldu ki, neft ehtiyatları cəmi 930 min barel azalıb. Bu informasiya birjalarda şok effekti yaratdı. Qısa müddət ərzində neftin qiyməti 46, 68 dollara kimi ucuzlaşdı. Bu gün səhər yenidən neftin qiyməti 48 dollar həddini keçdi. Digər bir səbəb isə ondan ibarətdir ki, biz hələ də mayın 25-də keçiriləcək OPEK-in növbəti toplantısı ilə bağlı bazar iştirakçılarına pozitiv siqnallar verilmir. Bu konfransın qəbul edəcəyi qərar və ondan sonrakı addımlar barədə bazarı qane edəcək proqnozlar yoxdur. Vəziyyət hələ dumanlıdır".

**İ.Şabanın sözlərinə görə, əgər bazarda vəziyyət dəyişməsə neftin ucuzlaşması davam edəcək:** "May ayı başlayandan neft 50-55 dəhlizindən 45-50 dəhlizinə keçid edib. Əgər bazarda vəziyyət dəyişməsə neftin ucuzlaşması davam edəcək. Noyabr ayının sonunda OPEK-in qəbul etdiyi qərardan sonra neftin qiyməti 50 dollar həddini keçdi və sonrakı dövrlərdə müsbət dinamika nümayiş etdirdi. Bu ilin ötən 4 ayının yekunlarını nəzərə alsaq, OPEK ölkələri tərəfindən hasilat 1,2 milyon barel azaldılıb, 558 min barel isə qeyri-OPEK ölkələri tərəfindən azaldılıb. 4 aydan sonra OPEK açıqladı ki, artıq bu həyata keçirilib. Bunun nəticəsi olaraq, Brent markalı neftin orta qiyməti 53 dollardan yüksək oldu. Bu o deməkdir ki, biz 4 ayı başa vursaq da, hazırkı nəticə 2017-ci il üçün verilən 52 dollarlıq proqnozu üstələyir. Yəni OPEK-in addımı düzgün addım idi ki, il başlayandan sonra qiymətlərin kifayət qədər artmasına gətirib çıxartdı. Nəzərə alsaq ki, ötən ilin noyabrında neftin qiyməti 43 dollar idi, deməli 23 faiz artım qeydə alınıb. Bazara müsbət dinamika vermək, tənzimləmək, bazarı qızdırmaq və ədalətli qiymət səviyyəsində saxlamaq üçün növbəti addımlar yetərli olmalıdır. ABŞ hazırda hasilatı artırır. Bunun qarşılığında OPEK ölkələri ona uyğun olaraq hasilatı azaltmalıdırlar ki, cari il üçün neftin orta qiyməti 50 dollardan aşağı düşməsin. Əgər belə olarsa, bu il neftin orta qiyməti 50 dollardan aşağı enməyəcək. Əks halda ucuzlaşma baş verəcək".



**Bu prosesin manatın məzənnəsinə təsirinə gəlincə, İ.Şaban vurğuladı ki, Azərbaycanda valyuta bazarı digər bazarlardan fərqli olduğundan bu təsir birbaşa hiss olunmur:** "Rusiyada bu dinamika daha çox hiss olundu, biz rublun kəskin ucuzlaşdığını müşahidə etdik. Ancaq Azərbaycanda bazar dünya bazarı ilə həmahəng səslənmir. Bizdə lokal bazardır. Həmçinin bu bazara milyardlarla manat vəsait inyeksiya edilir. Məhz bunun nəticəsində manat bir neçə ay sabitliyini qoruyub saxlayır. Əks halda manatın möhkəmlənməsi üçün iqtisadiyyatda heç bir başqa dayaq nöqtəsi yoxdur. Mərkəzi Bankın açıqladığı son hesabat da onu göstərir ki, Neft Fondundan milyardlarla vəsait alınıb və manatın möhkəmlənməsinə yönəldilib. Bizim neft satışından gələn valyutanın azalması Neft Fondundan Mərkəzi Banka transferlərin həcminin azalmasına səbəb ola bilər. Bu isə manatın stabilləşməsi üçün lazım olan vəsaitlərin bazara vaxtında daxil ola bilməməsinə gətirib çıxarar və manatın məzənnəsinə də təsirsiz ötüşməz".

❑ **Nərgiz LİFTİYEVA**

# Xanım Qarabağ qazisinin səhhəti yenidən pisləşib




## Nazirlik rəsmisi: "Əgər onun xəstəliyinin ölkəmizdə müalicəsi varsa, çox yüksək səviyyədə bu, təşkil olunacaq"

**1-ci qrup əlil, Qarabağ qazisi Rüxsarə Cumayeva sosial yardım ala bilməməsindən şikayətlənib. Qarabağ qazisi qeyd edib ki, bununla bağlı dəfələrlə Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinə müraciət etsə də nəticəsi olmayıb:**





"Dövlətdən 66 manat prezident təqaüdü alıram, 74 manat isə əllilik üçün aldığım müavinətdir. Amma himayəmdə azyaşlı qızım olduğu üçün mənə dövlətdən müavinət düşür, hansı ki, aztəminatlı ailələr üçün nəzərdə tutulub. Lakin 2016-cı ilin yanvar ayından bugünkü qədər nazirlikdən eyni bəhanələr, sözlər, suallar eşidirəm və müavinəti ala bilmirəm. Bəs o yardım mənə düşmürsə, kimə düşür? Evim, maşınım yoxdur. Yeganə əlil ola-ola Qarabağ müharibəsinə gedən tibb işçisiyəm. Gücüm çatdığım qədər həmin zamanlarda yaralıları ayağa qaldıra bildim. Bəs bu gün dövlət mənə sahib çıxmırsa, mən nə edə bilərəm? Övladım ali təhsil almaq istəyir, lakin hansı pulla onu oxutdurum? Hər kəsin də bildiyi kimi heç bir yerdə pulsuz iş görülmür".

Rüxsarə Cumayeva qeyd etdi ki, ayaqlarında yaranmış ciddi problemlərə görə Türkiyədə təcili müalicə almalıdır. Lakin dövlət xətti ilə buna nail ola bilməyib: "Sənədlərim müvafiq komissiyadadır. Komissiya məni Türkiyəyə göndərməmək üçün imtina ərizəsi yazıb və məni Əlillərin Bərpa Mərkəzinə göndərib. Hansı ki, həmin qurumdan sənəd aparmışdım ki, mən xaricdə mütləq müalicə almalıyam. 7 dəfə hər iki ayağımdan əməliyyat keçirmişəm. Hamısı da millətimin köməkliyi nəticəsində həyata keçirilib. İndi yenidən müalicə almağım lazımdır. Mənim də buna imkanım çatmır. Gəlib mənim evimə baxsınlar, görsünlər harada və hansı şəraitdə yaşayıram. Axı mən də bu dövlətin adamıyam, vətəndaşıyam. Mən dəfələrlə prezidentə, birinci vitse-prezidentə məktublar yazmışam. Artıq dövlət rəhbərlərini narahat etməyə utanıram. Lakin əlacım yoxdur başqa. Mənim 50 yaşım var. Övladımın ali təhsil alması-nı istəyirəm. Lakin geyimini belə ala bilmirəm. Yaxşı ki, zamanında bəzi xeyirxah insanlar mənə köməklik etdi, əməliyyatlara girdim. Mən bir övladıma baxa bilmirəm. Əgər işləmək bacarığım olsaydı işləyərdim və dövlətdən heç nə istəməzdim. Lakin əliləm, çəliklə gəzirəm, buna görə işləyə bilmirəm".

Məsələ ilə bağlı aidiyyəti qurumların mövqeyini öyrənməyə çalışdıq. Səhiyyə Nazirliyinin mətbuat xidmətinin əməkdaşı Səfayə Əhmədova şikayətçinin ittihamlarına bu cür cavab verdi: "Qətiyyən inanmıram ki, kimsə həmin xanımdan pul istəsin. Xəstə xaricə müalicəyə o zaman göndərilir ki, ölkəmizdə onun müalicəsi yoxdur. Əgər onun xəstəliyinin ölkəmizdə müalicəsi varsa, çox yüksək səviyyədə bu təşkil olunacaq. Belə hallarda xəstə komissiyaya müraciət edir, məsələ araşdırılır, sonra qərar verilir. Amma bir daha qeyd edirəm ki, heç kəs həmin xanımdan pul tələb edə bilməz. Əgər xanımın pulu olsaydı, elə özü gedib müalicə alardı. Çox yaxşı olardı ki, xanım bizimlə əlaqə saxlasın və məsələni araşdıraq".

**Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən də məsələyə münasibət bildirildi:**

"Nazirliyimiz ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərin bütün iştirakçılarına qayğı ilə yanaşır, onların sosial müdafiəsi sahəsində qanunvericilikdə nəzərdə tutulan qaydada və öz səlahiyyətləri çərçivəsində bütün müvafiq işləri görür. Bakı şəhəri, Nəsimi rayon sakini Cumayeva Ruxsarə Bayraməli qızı ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərin iştirakçılarından olsa da, rəsmi sənədlərə əsasən, 1-ci qrup Qarabağ müharibəsi əlili deyil, ümumi səbəbdən 1-ci qrup əlilliyi olan şəxsdir. R.Cumayeva ümumi səbəbdən birinci qrup əlilliyi olan şəxs kimi Azərbaycan Respublikası Prezidentinin ümumi səbəbdən birinci qrup əlillər üçün nəzərdə tutulan aylıq təqaüdünü (66 manat) və əmək pensiyası hüququ olmadığına görə birinci qrup əlilliyə görə ayda 74 manat sosial müavinət alır. Qarabağ müharibəsi əlili statusu olan şəxslərin sosial təminatı fərqli rəqəmlərlə ifadə olunur. R.Cumayeva himayəsində azyaşlı qızı olduğunu və maddi vəziyyətinin çətinliyinə görə dövlət tərəfindən ona sosial yardım verilməsini istəyir. Bununla əlaqədar bildiririk ki, "Ünvanlı dövlət sosial yardımı haqqında" Azərbaycan Respublikası Qanununa əsasən, orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələrin sosial yardım almaq hüququ vardır. Eyni zamanda, 2016-cı ilin fevral ayından Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Vahid Elektron Müraciət və Təyinat Alt Sistemi vasitəsilə ünvanlı sosial yardımların təyinatı prosesi tam avtomatlaşdırılmış şəraitdə aparılır. Sosial yardımın alınması üçün müraciətin edilməsi, müraciətlərə baxılması və yardım təyin olunub-olunmaması barədə qərar qəbulu, habelə həmin qərarlar barədə vətəndaşların məlumatlandırılması prosesi elektron sistem üzərindən, yəni heç bir məmur müdaxiləsi olmadan, tam şəffaf şəkildə yerinə yetirilir. Hələ ötən il R.Cumayeva da ailəsinə ünvanlı dövlət sosial yardımının təyin olunması üçün elektron qaydada müraciət etmişdi, lakin avtomatlaşdırılmış sistem tərəfindən baxılarkən onun aylıq xərcləri ehtiyac meyarının məbləğindən yüksək olduğundan imtina qərarı verilmişdi. Bununla belə, R.Cumayeva da digər vətəndaşlar kimi, istənilən vaxt ailəsinin ünvanlı sosial yardım almaq hüququna baxılması üçün təkrar şəkildə elektron qaydada müraciət edə bilər və onun müraciətinə tam şəffaf şəkildə baxılaraq, sistem tərəfindən obyektiv qərar veriləcək. Bununla belə, R.Cumayevanın maddi vəziyyəti nəzərə alınaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətləri çərçivəsində onun ailəsinə mümkün maddi köməkliyin göstərilməsi məsələsi araşdırılacaq".

❑ **Xalidə GƏRAY**
**Foto: «YM»**

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

# Murdar ət mafiyası yenə iş başında

## Xaçmazın Padar kəndi yaxınlığındakı meşədə at əti aşkarlandı

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Nəzarəti Xidməti (DBNX) aidiyyəti qurumlarla birlikdə qanunvericiliyə uyğun ölkə ərazisində epizootoloji sabitliyin və qida təhlükəsizliyinin qorunması, insan həyat və sağlamlığına təhlükə törədən, mənşəyi məlum olmayan heyvandarlıq məhsullarının satışının qarşısını almaq məqsədilə dövlət baytarlıq nəzarətini həyata keçirir.**



Qurumun mətbuat xidmətindən Musavat.com-a verilən məlumata görə, 5 may 2017-ci il tarixində alınmış məlumat əsasında Dövlət Baytarlıq Nəzarəti Xidmətinin Xaçmaz Rayon Baytarlıq İdarəsinin və Daxili İşlər Nazirliyinin Baş İctimai Təhlükəsizlik İdarəsinin Karantin tədbirlərini təmin edən əlahiddə polis taboru əməkdaşlarının iştirakı ilə qida təhlükəsizliyinin qorunması, insan həyat və sağlamlığına təhlükə törədən, mənşəyi məlum olmayan heyvandarlıq məhsullarının satışının qarşısını almaq məqsədi ilə Xaçmaz rayonu Padar kəndi yaxınlığındakı meşə ərazisinə baxış keçirilib. Baxış zamanı meşə ərazisində qeyri-qanuni, antisanitar şəraitdə, gizli şəkildə kəsilmiş, sümükdən ayrılmış, mənşəyinə və sağlamlığına dair heç bir sənədi olmayan 100 kq çəkisində at əti və 1 ədəd kəsilmiş atın başı aşkar olunub. İlkin araşdırma nəticəsində həmin heyvanın kənd sakini Padar kənd sakini Məmmədov İsmayıl Müzəffər oğlu tərəfindən kəsilməsi, ətin sümükdən ayrılması və həmin at ətinin Bakı şəhərində satılması məqsədi ilə hazırlandığı müəyyən edilib.

Aşkar edilmiş, sümükdən ayrılmış at ətindən baytarlıq qanunvericiliyinə müvafiq nümunələr götürülərək müayinə üçün Respublika Baytarlıq Laboratoriyasına göndərilmişdir.

Xaçmaz rayonu Padar kənd sakini Məmmədov İsmayıl Müzəffər oğluna məxsus 100 kq çəkisində olan sümükdən ayrılmış at ətinin müayinələri başa çatana kimi saxlama kamerasına yerləşdirilmişdir.

Bu son zamanlar Xaçmaz rayonunda aşkarlanan 2-ci belə hadisədir. Birinci hadisə ilə əlaqədar Xaçmaz Rayon Polis Şöbəsində araşdırmalar aparılması məqsədi ilə müraciət olunub.

**Ətdən götürülən nümunələrin laboratoriya müayinələrinin nəticəsindən asılı olaraq qanunvericiliklə müəyyən olunmuş qaydada tədbirlər görüləcək.**

**İsrail ənənəsi əsasında özəl tibbi sahədə 20 illik təcrübə!**
**XƏSTƏLİKDƏN ƏZAB ÇƏKƏN İNSANLARA ƏSASƏN KİŞİLƏRƏ!**
**DİQQƏT!!! AXIRINCI ŞANS!!!**

Azərbaycanda və yaxud xaricdə diaqnozun təsdiqi və tam müalicəsi mümkün olmayıbsa, **doktor VAİZ SƏMƏDOV** şəxsi tibbi metodikası ilə Sizin uğurlu və daha qarantili olaraq aşağıdakı xəstəlikləri keyfiyyətli müayinə və müalicə edə bilər.

- Diaqnozu bilinməyən ağır hallar;
- Xərçəngə şübhəli olan prostat düyünlü adenoması. Prostatitlər; Qipertrofiya və ya Atrofiya
- Cinsi zəiflikdən tam impotensiyadək, marağın və aktların azalması;
- Vaxtından tez toxum ifrazatı (səbəbdən asılı olmayaraq)
- Toy gecəsinin uğursuzluqları (kişi tibbi problemlər)
- Sidikdə və ya spermada qan;
- Spermanın azalması və itməsi;
- Kişi cinsi orqanının birdən əyilməsi və balacalması;
- Oğlan uşaqlarında cinsi orqanların (penisin və xayaların) inkişafdan qalması;
- Hormonal və infeksion səbəbli sonsuzluq (kişi və qadınlarda);
- Tala-tala və hərtərəfli saçların tökülməsi;
- Gecə-gündüz uşaq və böyüklərdə sidik aktların pozulmaları; Enurez
- 50 yaşdan sonra oynaqlarda və onurğada baş verən qeyri travmatik ağrılar və hərəkət çətinlikləri;
- Psixo-nevroloji gərginlik, yuxusuzluq, qorxu, yaddaşın azalması və digər qəribə olan şikayətlər.
- Zöhrəvi xəstəliklərdən sonra qalıqlar və ağırlaşmalar.

---

**D-r V.Səmədovun əsas tibbi prinsipi - keyfiyyətli və təkrarsız müalicə aparmaq üçün xəstəliyin əsl və bütün səbəblərini aşkar etmək zəruridir.**

---

*Qəbula yazılmaq və ünvanı öyrənmək üçün saat 11-dən 23-ə dək, **(050) 213-88-05** nömrəsinə, **d-r Vaiz Səmədova** zəng etmək olar.*
Qəbul növbə ilə hər gün saat 12-dən sonra başlayır.

bakcell

## «Bakcell» Cocuq Mərcanlıda şəbəkəsini gücləndirib

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti işğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası tədbirlərinə qoşularaq burada mobil rabitə şəbəkəsini təkmilləşdirməyə başlayıb.**

**Qeyd olunan təkmilləşdirmə işləri çərçivəsində ilkin mərhələdə Cocuq Mərcanlının bərpası işlərində çalışan insanların kəsintisiz mobil rabitə xidməti ilə təmin olunması üçün ərazidə yeni baza stansiyası qurulub. Daha sonra isə Cocuq Mərcanlının yüksəksürətli mobil internetlə təmin olunması üçün «Bakcell» burada 3G şəbəkəsinin təkmilləşdirilməsi üzrə işləri uğurla tamamlayıb.**

**"Bizim məqsədimiz Azərbaycanın hər bir bölgəsində yaşayan «Bakcell» abunəçilərini keyfiyyətli və sərfəli mobil rabitə xidməti ilə təmin etməkdir. Cəbhə bölgələrində yaşayan əhalinin keyfiyyətli mobil rabitəyə olan xüsusi tələbatını nəzərə alaraq «Bakcell» bu ərazilərdə şəbəkənin keyfiyyətini daim xüsusi nəzarətdə saxlayır. Bununla yanaşı şirkət Cocuq Mərcanlıya köçürüləcək əhaliyə yüksək keyfiyyətli mobil rabitə xidmətlərini xüsusi güzəştli şərtlərlə təqdim etməyi planlaşdırır", deyə «Bakcell» şirkətinin baş icraçı direktoru cənab Nikolai Bekers bildirib.**

**Qeyd edək ki, hazırda «Bakcell» şəbəkəsi əhalinin 99%-ni, ölkə ərazisinin isə 93% -ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir.**

## Həbsdə olan şəxsi "azad etmək" üçün məhkumun anasından 12 min alan şəxsə ağır cəza

**Oğlu həbsdə olan qadına qarşı dələduzluq edən şəxsə 8 il cəza verilib. O, qadının həbsdə olan oğlunu azadlığa çıxaracağını vəd edərək onun 12 min manatını ələ keçirib.**

Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində dələduzluqda təqsirləndirilən Sahib Rüstəmovun cinayət işi üzrə məhkəmə prosesi başa çatıb. Hakim Eynulla Vəliyevin sədrliyi ilə keçirilən prosesdə S.Rüstəmova hökm oxunub. O, məhkəmənin qərarı ilə 8 il müddətinə azadlıqdan məhrum edilib.

S.Rüstəmov 2015-ci ildə Bakı şəhər sakini Sədaqət Aslanovaya qarşı dələduzluq edib. O, S.Aslanovanın etibarından sui-istifadə edərək, onun həbsdə olan oğlu Elvin Aslanovun azadlığa buraxılmasını vəd edib. S.Rüstəmov dostu vasitəsi ilə E.Aslanovu guya həbsdən azad edəcəyini bildirərək, anasından 12 min manat pulu dələduzluq yolu ilə ələ keçirib. Bundan başqa, S.Rüstəmov S.Aslanovanın evinin tikinti sənədlərini rəsmiləşdirəcəyini və order alcağını da vəd edərək onun 3 min dollarını alıb. Daha sonra o, S.Aslanovaya verdiyi vədlərə əməl etməyib.

Qeyd edək ki, S.Rüstəmovun həbsdən azad etdirəcəyini dediyi Elvin Aslanov 2016-cı ildə mağazadan oğurluq etdiyinə görə həbs edilib. Ona Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il 6 ay cəza verilib. S.Rüstəmov Elvin Alsanovun anasından aldığı pulu Bakı Ağır Cinayətlər Məhkəməsində işə baxan hakimin köməkçisinə verdiyini deyib. Amma Elvin barəsində həbs qərarı çıxarılan zaman Sədaqət Aslanova pulunu geri istəyib.

Cinayət işi materiallarında aydın olur ki, S.Rüstəmov 2016-cı ildə də dələduzluq edib. Və məhkəmənin qərarı ilə cərimə cəzası alıb. S.Aslanovanın şikayəti əsasında saxlanılan S.Rüstəmov barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda törəldildikdə) maddəsi ilə cinayət işi başlanılmışdı.

❑ **İlkin MURADOV**

## Bulvarda özünü öldürmək istəyən şəxsə imkan verilmədi

**Dənizkənarı Milli Parkda intihara cəhd olub. Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti xəbər verir ki, nazirliyin Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə daxil olmuş məlumata əsasən Bakı şəhəri, Dənizkənarı Milli Park ərazisində bir nəfər intihar məqsədilə özünü dənizə atıb və boğulmaq təhlükəsi ilə üzləşib.**

Dərhal Nazirliyin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin xilasediciləri hadisə yerinə cəlb olunaraq vətəndaşı xilas edərək aidiyyəti üzrə təhvil veriblər.

## Mayın 7-dək hava şəraiti qeyri-sabit olacaq

**Mayın 6-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən verilən məlumata görə, günün birinci yarısında yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var.**

Mülayim şimal-qərb küləyi gündüz cənub küləyi ilə əvəz olunacaq.

Havanın temperaturu Abşeronda gecə 13-16, gündüz 20-25 dərəcə isti, Bakıda gecə 13-15, gündüz 22-24 dərəcə isti olacağı gözlənilir.

Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu təşkil edəcək.

Nisbi rütubət 70-80 % təşkil edəcək.

Azərbaycanın rayonlarında gözlənilən hava şəraitinə gəlincə, bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Axşam əksər rayonlarda yağış tədricən kəsiləcək. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 10-15, gündüz 23-28 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 11-16 dərəcə isti olacağı gözlənilir.

ETSN xəbərdarlıq edir ki, mayın 7-dək ölkə ərazisində qeyri-sabit hava şəraiti davam edəcək. Bəzi yerlərdə şimşək çaxacağı, arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, dolu düşəcəyi, çaylarda sululuğun artacağı ehtimalı var.

YENİ MÜSAVAT
N 96 (6710) 6 may 2017

# "Təzə bazar" yanğından sonra yenidən qurulub

## Vəd etsələr də, ziyana düşmüş adamlara kompensasiya verilməyib









**"Təzə bazar"da baş verən yanğından sonra bazarın yanan hissəsi tamamilə bərpa olunub. Lakin satıcılara dəymiş zərər ödənilmədiyi üçün onlar mövcud durumdan narazıdırlar.**

Nəsimi rayonunda yerləşən və ümumi sahəsi 1,5 ha olan "Təzə bazar"da yanğından bir ay sonrakı vəziyyəti öyrənmək üçün bazarda olduq. Öncə xatırladaq ki, aprelin 4-də bazarda baş verən güclü yanğın nəticəsində birmərtəbəli mağazaların yanar konstruksiyaları və piştaxtalar 400 kvadratmetr sahədə yanmışdı.

Bazarın qalan hissəsi isə Fövqəladə Hallar Nazirliyinin (FHN) əməkdaşları tərəfindən yanğından mühafizə olunmuşdu. Yanğın gecə saatlarında baş verdiyi üçün əksər satıcılar bundan xəbərsiz olub, mallarını xilas edə bilməmişdilər. Nəticədə isə özlərinin sözlərinə görə, onlara külli miqdarda zərər dəymişdi. Həmin ərəfədə bazarın direktor müavini "Yeni Müsavat"a bildirmişdi ki, dəymiş ziyanın miqdarı bəlli olduqdan sonra sahibkarlara kompensasiya ödənilməsi barədə işlər aparacağıq. Həmin açıqlamadan artıq bir ay keçsə də, öyrəndik ki, bu barədə vəziyyət dəyişməyib.

Bazarda olduğumuz zaman müşahidə etdik ki, yanmış hissə yeni konstruksiyalarla bərpa olunub və artıq satıcıların istifadəsinə verilib. Digər yanmış hissədə isə bərpa-tamamlanma işləri görülür. Yanğın nəticəsində külə dönən bazarın üstündəki konstruksiya da artıq yenidən qurulub. Öyrəndik ki, yaxın günlərdə piştaxtalar da yenidən əvvəlki qayda üzrə qurulacaq. Satıcılar isə bildirdilər ki, piştaxtalar təmir edilsə də, əllərində olan bütün malları yanıb. Bazarın yanan hissəsində kiçik kafesi olan Mənsurə xanım bildirdi ki, ona 1500 manatdan çox zərər dəyib və hələ də çarəsiz vəziyyətdə gözləyir: "Hazırda gördüyünüz kimi piştaxtalar olan hissəni bərpa edir, bazarın üstünü yenidən təmir edirlər. Ancaq bizə heç bir yardım etmədilər. Yanğın gecə baş verdiyi üçün xəbərimiz olmayıb. Soyuducum, bahalı çayniklərim, qab-qacaqlarım, içəridəki məhsulların hamısı yanıb kül oldu. Heç nə çıxara bilmədim. Vəd etsələr də bizə kompensasiya verilmədi. Hazırda gördüyünüz kimi, kafeni öz vəsaitim hesabına bərpa edirəm. 25 il idi ki, bu bazarda işləyirdim. Az-çox müştərimiz də var idi. İndi bir aydır ki, fəaliyyətsiz qalmışıq. Ailədə qazanan mən olduğum üçün çox çətindir. Ümid edirik ki, kompensasiya ödəniləcək. Lakin bu barədə hələ ki, heç bir söhbət aparılmır. İndi də nisyə mal götürmüşəm, çalışıram ki, nə isə edəm..."

**Satıcı Süleyman bildirdi ki, onun da bütün malları və piştaxtası yanıb:** "Yanğından sonra yuxarıdan tapşırıq verildi ki, bazar tez bir zamanda bərpa olunsun. Nəticəsi də göz qabağındadır. Bir ayın içərisində doğrudan da bazarı demək olar ki, bərpa etdilər. Burada bir aydır ki, gecə-gündüz işlər aparılırdı. Mənim də piştaxtam yanmışdı, bərpa etdilər. Hazırda işə əvvəlki qaydada davam edirəm. Ancaq yanan mala görə heç bir kompensasiya almamışam. Təkcə mən yox, ümumiyyətlə, heç kimə dəymiş zərər ödənilməyib. Bildirirlər ki, bazar tam təmir olunduqdan sonra burada açıq piştaxtalar qoyulacaq. Təmirdən heç bir narazılığımız yoxdur. Yanan hissədə əsasən, tərəvəz, meyvə, balıq satılırdı. Demək olar ki, heç kim məhsulunu xilas edə bilmədi. Gözləyirik ki, bəlkə bizə dəyən zərəri ödədilər".

**Digər satıcılarla söhbətimiz zamanı onlar da oxşar fikir söylədilər. Kompensasiya məsələsi ilə bağlı məlumat almaq üçün bazar rəhbərliyi ilə əlaqə saxlamağa cəhd etsək də, buna nail ola bilmədik.**

**❑ Əli RAİS**
**Fotolar müəllifindir**




# Səhiyyə Nazirliyi Masallıda 5 yaşlı uşağın sünnət zamanı ölməsinə münasibət bildirib

**Səhiyyə Nazirliyi Masallıda 5 yaşlı oğlanın sünnət olunarkən ölməsi hadisəsinə münasibət bildirib. APA-nın xəbərinə görə, respublikanın baş pediatr Nəsib Quliyev bildirib ki, sünnət əməliyyatını ara həkimi deyil, uşaq cərrahı və yaxud uroloqu aparmalıdır: "Düşünürlər ki, sünnət 5 dəqiqəlikdir, amma belə deyil. Reallıq göstərir ki, sünnətin ölüm kimi ağır fəsadları ola bilər.**

Bu fəsadların əmələ gəlməsinin ilkin səbəbi sünnət əməliyyatının qeyri-professional şəxslər tərəfindən, uşaqları müayinə etməmiş, müvafiq şərait olmayan bir vəziyyətdə icra edilməsidir. Səhiyyə Nazirliyinin və tibb işçilərinin əhaliyə tövsiyəsi odur ki, sünnəti professional mütəxəssis, həkimlə etdirsinlər. Onda belə xoşagəlməz halların qarşısı alınacaq. Hələ də "ləzgi dəlləyi" tapıb, sünnət etdirənlər var. Bəziləri tibb işçilərini günahlandırır. Bunu da qəbul edirəm, amma ondan qabaq uşağın valideynlərini günahlandırmaq lazımdır".

**N.Quliyev qeyd edib ki, uşaqlar bir qayda olaraq 2 yaşa qədər və ya 5 yaşdan sonra sünnət olunmalıdırlar. Bunun tibbi izahının olduğunu deyən baş pediatr bildirib ki, 2-5 yaş arası uşaqlarda qorxu və stress baş verir:** "2 yaşlı uşaqlar sünnətin mahiyyətini anlamır. 5 yaşdan sonra uşaqları isə həkim başa salır ki, bu qorxulu bir şey deyil və vacibdir. Uşaqları heç vaxt 40-ı çıxmadan sünnət etdirmək olmaz. Təəssüf ki, insanlar təkidlə özəl müəssisələrdə sünnət etdirirlər. Dərk etmirlər ki, hələ təzə dünyaya gəlmiş uşağın adaptasiyası tam yekunlaşmamış bu əməliyyatı etmək olmaz. Dünyada uşaqların neonatal, yenidoğulma dövrü ilə bağlı iki fikir mövcuddur. Bir xristian dünyasının təklif etdiyi 28 gün, birdə müsəlman dünyasının təklif etdiyi 40 gün. Amma elmi araşdırma göstərir ki, müsəlman dünyasında qəbul olunmuş daha doğru variantdır".

# Bunu etməyənlər İslamiadanın açılış və bağlanış mərasimlərinə buraxılmayacaq

**IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış mərasimlərində tamaşaçı kimi iştirak edəcək şəxslər mütləq qaydada ekspress xətt dayanacaqlarında avtobusa minərkən bilet və şəxsiyyətini təsdiq edən sənədi nəzarətçilərə təqdim etməlidirlər.**




Bakı Nəqliyyat Agentliyindən milli.az-a bildiriblər ki, bileti təqdim etməyən şəxslərin ekspress avtobuslarına minməsinə icazə verilməyəcək. Bileti onlayn əldə edən tamaşaçılardan isə bunu təsdiq edən sənədi təqdim etmək tələb edilir.

Qeyd edək ki, IV İslam Həmrəyliyi Oyunlarının açılış və bağlanış mərasimləri zamanı (müvafiq olaraq, 12 və 22 may tarixlərində) biletli tamaşaçıların Bakı Olimpiya Stadionuna çatdırılması 3 seçilmiş istiqamətdən - metronun "20 Yanvar", "Gənclik" və "Qara Qarayev" stansiyalarından ekspress xətt avtobusları vasitəsi ilə həyata keçiriləcək. Bunun üçün adı çəkilən metro stansiyalarının çıxışına yaxın ərazilərdə xüsusi dayanacaq məntəqələri yaradılacaq. Həmin dayanacaqlardan biletli tamaşaçıların daşınması prosesi saat 18:00-dan 20:30-dək davam edəcək. Açılış və bağlanış mərasimlərini izləmək istəyən biletli əlil tamaşaçılar metronun "Gənclik" stansiyası yaxınlığındakı dayanacaqdakı avtobuslardan istifadə edə bilərlər.

**Məlumat üçün onu da qeyd edək ki, mayın 8-də keçiriləcək sınaq açılış mərasimi ilə əlaqədar H.Əliyev və Neftçilər prospektləri, eləcə də Y.Səfərov küçəsində nəqliyyatın hərəkətinin məhdudlaşdırılması şəhər sakinlərinin rahatlığı nəzərə alınmaqla təxirə salınıb.**

YENİ MÜSAVAT

Son səhifə

N 96 (6710) 6 may 2017





## Sosial şəbəkəyə görə ad-soyadı dəyişdi

Londonda yaşayan Cemma Rocersin başına facebook ucbatından qəribə iş gəlib. Belə ki, 30 yaşlı qadın 2008-ci ildə özünə saxta niklə profil açıb. Cemmaroid fon Laalaa adlı profil açan Cemma daha sonra sosial şəbəkə rəhbərliyi tərəfindən sorğu atəşinə tutulub. Saxta profillərin bağlanacağı xəbərdarlığını nəzərə alsaq, bu, gözlənilən addım idi. Sonralar gənc qadından facebookdakı ad və soyadının həqiqi olmasını təsdiqləməsi üçün sənəd tələb ediblər. Səhifəsinin bağlanacağından qorxan qadın isə bank kartlarının üzərinə saxta profilindəki adı qeyd edərək, onlara yollayıb. Təbii ki, sosial şəbəkə rəhbərliyi onun yalan danışdığını müəyyən edərək, səhifəsinə girişi qadağan ediblər. Bütün cəhdlərinə baxmayaraq, onun səhifəsi bərpa olunmayıb və gənc qadın çıxış yolu olaraq adını saxta profilindəki kimi dəyişib. Artıq o, bank kartlarında, sürücülük vəsiqəsində və qalan bütün sənədlərində fon Laalaadır. Lenta.ru saytının xəbərinə görə, fon Laalaa hələ də öz səhifəsinə girə bilmir: "Mən bütün şəkillərimi, paylaşımlarımı, informasiyalarımı, eləcə də dəyərli xatirələrimi itirdim".

Facebookdan isə ona bildirilib ki, onun problemini əvvəlki kimi araşdırırlar.

# Akvariumu dəyişmədilər, on min balıq tələf oldu

Braziliyada on minə yaxın balıq olduqca maraqlı bir səbəbdən tələf olub. "Channel News Asia"nın xəbərinə görə, buna səbəb balıqların iri akvariuma köçürülməməsi olub. Belə ki, akvariumun 2017-ci ilin sonlarına qədər hazırlanıb qurtaracağı gözlənilirdi. Buna görə də noyabrda Afrikadan, Asiyadan növbənöv balıqlar gətirildi. Amma tikinti işləri uzandı və su heyvanlarını müxtəlif akvariumlara yerləşdirdilər. Amma balıqların 80 faizi temperatur rejiminə tab gətirə bilmədi, on faizi müxtəlif xəstəliklərə görə tələf oldu, bir o qədəri isə yerdəyişməyə dözə bilmədi. Bundan başqa, ehtimal



olunur ki, balıqların tələf olmasına suyun yetərli miqdarda təmizlənməsi də səbəb ola bilər. İnsidentin araşdırması ilə ştat prokurorluğu məşğul olur. Nəhəng akvariumun tikilməsinin maliyyəsi 170 milyon Braziliya realına başa gələcəyi nəzərdə tutulub. Məlum insidentdən sonra obyektin tikintisini qeyri-müəyyən müddətə təxirə saldılar.

# "Johnson & Johnson" xərçəngə mübtəla olan qadına 110 milyon dollar ödəyəcək




Sent Luisdə yerləşən Missuri ştat məhkəməsi "Johnson & Johnson" şirkətinin Virciniyada yaşayan, xərçəng xəstəliyinə yoluxmuş bir qadına 110 milyon dollar kompensasiya ödəməsi barədə qərar çıxarıb. Bu barədə "Reuters" agentliyi xəbər yayıb. Lois Slemp adlı qadında yumurtalıqların xərçəngi 2012-ci ildə üzə çıxıb. Daha sonra xəstəlik böyrəklərə qədər yayılıb. Hazırda 62 yaşlı qadın kimyaterapiya kursu keçir. Qadın iddia edir ki, xəstəliyinə səbəb sözügedən firmanın məhsulları olub. Belə ki, o, 40 ildir firmanın bu və ya digər məhsullarından istifadə edib. Qadının vəkili deyib ki, "Johnson & Johnson" öz məhsullarının ziyanı ilə bağlı elmi məlumatları inkar edir. "Reuters" agentliyinin xəbərinə görə, kampaniya Slempin xəstəliyinə görə dərin təəssüf hissi keçirsə də, məhkəmənin qərarından şikayət verəcək.

2016-cı ilin may ayında Missuri ştatından olan Qloria xərçəng xəstəliyinə tutulduğu üçün "Johnson & Johnson" firmasından 55 milyon dollar həcmində kompensasiya qazanmışdı. Buna bənzər hadisə oktyabr ayında da baş verib. Həmin vaxt da şikayətçilərdən biri kampaniyadan 70 milyon dollar məbləğində kompensasiya udub.




**QOÇ** - Yalnız saat 12-14 arası gərgin keçə bilər. Qalan saatlarda iştirakçısı olduğunuz bütün proseslər zövqünüzlə vəhdət təşkil edəcək. Axşama yaxın sevindirici xəbərlər eşidəcəksiniz.

**BUĞA** - Bir neçə amillə rastlaşacaqsınız ki, bu da saat 15-ə qədər ovqatınızda mənfi çalarlar yaradacaq. Odur ki, maksimal səbr nümayiş etdirməlisiniz. Bu gün çox pul xərcləməyin.

**ƏKİZLƏR** - Fəaliyyət sahəsində müəyyən irəliləyişlərə nail olmaq üçün ulduzlar sizə şans yaradacaq. İkitərəfli sövdələşmələrin uğurlu olacağını nəzərə alıb aktivliyinizi artırın.

**XƏRÇƏNG** - Saat 13-ə qədər vaxtınızı qalmaqalsız başa vura bilsəniz, sonrakı müddətdə hər hansı problemləriniz olmayacaq. Şəxsi büdcənizi artırmaq üçün münbit şəraitdən bəhrələnin.

**ŞİR** - Maliyyə məsələlərində çətinliyiniz olsa da, qarşılıqlı münasibətlər zəminində işləriniz qaydasında gedəcək. Ailə-sevgi münasibətləri isə daha romantik müstəviyə keçəcək.

**QIZ** - Maraqlı hadisələrin iştirakçısı olacaqsınız. Bu enerjini xeyirxah işlərə yönəltməyə çalışın. Çünki indi savab qazanmaq qarşınızda bağlı qalan qapıların açılmasına zəmin yaradacaq.

**TƏRƏZİ** - Göy qübbəsi şəxsi işlərinizdə böyük dönüş yaranacağından xəbər verir. Perspektivlərinizi reallaşdırmağa can atın. Yalançı həmkarlarınızdan uzaqlaşmağa çalışın.

**ƏQRƏB** - Neçə müddətdən bəri ləng inkişaf edən maliyyə işləriniz bu gündən başlayaraq qaydasına düşəcək. Bu istiqamətdə sizə kənardan da dəstək olacaq. Axşam qonaq getməyə dəyər.

**OXATAN** - Ulduzlar yeni və sevindirici hadisələrin iştirakçısına çevriləcəyinizdən xəbər verir. Bu siyahıya işgüzar əlaqələr və tanışlıqlar da aiddir. Amma riskdən uzaq olmalısınız.

**OĞLAQ** - Günün əsas hissəsini maraqlı tərzdə başa vuracaqsınız. Amma yaxşı olardı ki, nahardan sonra işə ara verib bir qədər dincələydiniz. Çünki axşam saatlarında astral bədəniniz zəifləyə bilər.

**SUTÖKƏN** - Təəssüf ki, bu təqvim bürcünüz üçün hansısa uğur vəd etmir. Bu səbəbdən də əsas diqqətinizi səhhət və mənzillə bağlı problemlərin həllinə yönəltməlisiniz. Qeybət və yalandan uzaq olun.

**BALIQLAR** - Sizə qarşı qərəzli çıxışlar gözlənilir. Əgər bədxah adamlarla baş-başa gəlmək iqtidarında deyilsinizsə, onda belələrindən vaxtında uzaqlaşın. İmkan olsa, nahardan sonra səfərə çıxın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Çox yatmaq da sağlamlığa ziyandır



İstirahət günləri normadan artıq yatmaq, bəlkə də, insanların ən zəif yerlərindən biridir. Alimlər artıq yuxunun piylənməyə səbəb olduğunu bildirirlər. Hər hansı şəxs nə qədər çox yatırsa, bir o qədər də piylənmə ilə əlaqədar xəstəliklər qazanır.

Mütəxəssislərin rəyinə görə, iş və istirahət günlərindəki yuxu müddətinin fərqi bədən üçün təhlükə törədir. Onlar bunu 800-dən çox könüllü insan üzərində araşdıraraq sübut ediblər. Əvvəlcə könüllülərin çəkisi, boyu ölçülüb, onlardan qan nümunələri götürülüb. Sonra könüllülər arasında necə saat yatmaları haqqında sorğu aparılıb və maraqlı nəticələr alınıb.

Məlum olub ki, adi iş günü ilə müqayisədə istirahət günü iki saat artıq yatanların çəkiləri artır və onlarda diabet xəstəliyinə meyllilik yaranır. Mütəxəssislər vəziyyətdən çıxış yolu üçün fəal həyat sürməyi, səhər tezdən idman zallarına getməyi məsləhət bilirlər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100